RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 198 (9943) 17 sentyabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Siyasi əlaqələrin ən yüksək zirvəsi

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Azərbaycana rəsmi səfər edib

Sentyabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycana rəsmi səfərə gəlib.

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı qarşılayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan avtomobillə Füzuli şəhərini gəziblər.

Şuşada Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə təkbətək görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin erməni işğalçıları tərəfindən güllələnmiş heykəllərinə baxıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Milli Xalça Muzeyinin Şuşa filialında olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Cıdır düzündə Qarabağ atlarının şousunu izləyiblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Şuşa qalasının önündə foto çəkdiriblər.

Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın şərəfinə rəsmi nahar verilib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi səfəri sentyabrın 16-da başa çatıb.

2-4

# Qalib Lider misli görünməyən layihələri reallaşdırır



Hazırda Böyük Qayıdışa dair Dövlət Proqramının uğurla icra edildiyini söyləyən ölkəmizin rəhbəri vurğuladı ki, son beş ilin tarixi Zəfər tarixidir. Bu müddət ərzində keçmiş məcburi köçkün soydaşlarımıza yeni mənzillər tikilib. Bütün şərait təmin edilib - su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar salınıb: "Ən önəmlisi bura doğma Qarabağ diyarıdır. Burada, sadəcə olaraq, rahat yaşamaq, qurub-yaratmaq, uşaqları böyütmək, onlara yaxşı tərbiyə vermək üçün bütün şərait var. Yəni artıq Azərbaycan xalqı bundan sonra sülh içində yaşayacaq. Amma sülh şəraitində yaşamaq üçün, əlbəttə ki, güc lazım idi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bilirsiniz, biz uzun illər çalışırdıq ki, Qarabağ münaqişəsi sülh yolu ilə həll olunsun. Ancaq Ermənistan tərəfi, onun arxasında duranlar başqa fikirdə idilər. Yəni onlar torpağımızı geri qaytarmaq fikrində deyildilər. Onlar və onların arxasında duranlar, böyük dövlətlərin rəhbərləri onlara ürək-dirək verərək elə bil ki, bu işğalı daimi etmək istəyirdilər. Amma bir şeyi hesablaya bilməmişdilər, o da Azərbaycan xalqının iradəsi, gücü, Vətən torpağına olan bağlılığı, Azərbaycan əsgərinin şücaəti, qəhrəmanlığı və xalqımızın birliyidir. Onu hesablaya bilməmişdilər. Əgər Ermənistan rəhbərliyi vaxtında mənim sözlərimə baxıb bizim torpaqlardan öz xoşu ilə çıxsaydı, İkinci Qarabağ müharibəsinə, antiterror əməliyyatına ehtiyac qalmazdı, üç mindən çox şəhidimiz olmazdı".

6

# 2026-cı ilin dövlət və icmal büdcələri artımla proqnozlaşdırılır



2026-cı ildə büdcə gəlirləri sahəsində həyata keçiriləcək əsas istiqamətlər ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etmək məqsədi daşıyır. Bu tədbirlər çərçivəsində vergi yükünün optimallaşdırılması, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi və vergi, gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi kimi addımlar planlaşdırılır.

Dövlət büdcəsinin əsas xərc istiqamətləri isə büdcə siyasəti qarşısında dayanan çağırışlar və sosial-iqtisadi hədəflər əsas götürülməklə müəyyənləşdirilmişdir. Ümumilikdə 2026-2029-cu illərdə dövlət büdcəsi xərcləri dövlətin əsas funksiyalarının maliyyələşdirilməsinin təmin edilməsinə yönəldiləcəkdir. Ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, o cümlədən ölkə sərhədlərinin bərpası və toxunulmazlığının təmin edilməsi, ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, ərazilərin minalardan təmizlənməsi, hərbçilərin sosial təminatının və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində kompleks tədbirlərin və layihələrin icrası, iqtisadiyyata dövlət büdcəsindən birbaşa və dolayısı ilə dövlət öhdəlikləri, dövlət sifarişi, subsidiya, subvensiya və dotasiya formasında maliyyə dəstəyinin davam etdirilməsi, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, əməkhaqqı sisteminin təkmilləşdirilməsi, əməyin ödənişi, pensiyalar, müavinətlər, təqaüdlər və digər sosial ödənişlər ilə bağlı xərclərin maliyyə təminatı, dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş dövlət proqram və tədbirlərin maliyyə təminatı ortamüddətli dövrdə dövlət büdcəsinin əsas xərc istiqamətlərini təşkil edəcək.

9

# Zəfər tarixinin quruculuq səhifəsi

Böyük qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlər yenidən tikilir, müasir infrastruktur layihələri icra olunur, yeni yollar salınır, istehsal müəssisələri yaradılır, məşğulluğun təmin edilməsi üçün lazım olan bütün zəruri tədbirlər görülür, bu torpaqlara qayıdış mərhələ-mərhələ gerçəkləşdirilir. Hazırda Qarabağ və Şərqi Zəngəzura köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan tələbələr də daxil olmaqla, ümumilikdə 50 mindən çox insan yaşayır. "Otuz il xalqımız bu günləri böyük səbirsizliklə gözlədi. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra artıq bu reallıqların şahidiyik. Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında bildirir ki, Qarabağ və Şərqi Zəngəzur nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar, müasir, eyni zamanda ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək".

6

# Prezident İlham Əliyevin Qarabağa hər səfəri bir müjdədir

İlham Əliyevin ayaq basdığı digər yerlər Xocavəndin Qırmızı Bazar qəsəbəsi və Sos kəndi, Xocalının Şuşakənd, Badara, Seyidbəyli kəndləri idi. Dövlətimizin başçısı bu yaşayış məskənlərində həyata keçirilmiş genişmiqyaslı abadlıq-quruculuq layihələrinin icrası ilə tanış olub. Həmin tanışlıq bərpa posesinin kağız üzərində deyil, reallıqda da nə qədər sistemli və məqsədyönlü şəkildə aparıldığını göstərmiş oldu. Qeyd edək ki, kəndlərdə salınan yeni infrastrukturlar, tikilən sosial obyektlər, çəkilən yollar həm də bir xalqın torpağına necə sahib çıxdığının, səbir və zəhmətlə gələcəyə doğru addımladığının sübutudur. Yenilənən küçələr, təmir olunan binalar bu torpaqlara qayıdışın, sülh və sabitlik içində yaşamaq əzminin rəmzidir. Bunlar, sadəcə, texniki göstəricilər deyil, bir millətin yenidən doğuluş tarixidir.

Dövlət başçısı ənənəsinə sadiq qalaraq Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin də təməlini qoyub. Bu, sadəcə, bir kəndin yox, bir həyatın, bir gələcəyin bünövrəsidir. İllərlə viran qalmış kənd yenidən insan nəfəsi, uşaqların gülüşü, ailələrin səsi üçün hazırlanır. Burada Qaraxanbəyli və Merdinli kəndlərinin sakinləri yerləşdiriləcək. İki mərhələdə icra olunacaq kənd müasir infrastrukturla, ağıllı yanaşmalarla salınacaq yeni bir yaşayış məskəni olacaq.

7



Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Azərbaycana rəsmi səfəri

# Siyasi əlaqələrin ən yüksək zirvəsi

## Füzuli Beynəlxalq Hava Limanında qarşılanma





**Sentyabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycana rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı qarşıladı.

Füzuli Beynəlxalq Hava Limanında Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə işğaldan azad olunmuş ərazilərimizdə inşa edilmiş Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları haqqında məlumat verildi.

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Şuşada rəsmi qarşılanma mərasimi olub









**Sentyabrın 16-da Şuşada Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Fəxri qarovul dəstəsinin rəisi Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə raport verdi.

Birləşmiş Ərəb Əmirliklərinin və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın qarşısından keçdi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyətinin üzvləri isə Azərbaycan Prezidentinə təqdim olundular.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Azərbaycan və Birləşmiş Ərəb Əmirliklərinin prezidentləri Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər





**Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan avtomobillə Füzuli şəhərini gəziblər.**

AZƏRTAC xəbər verir ki, sonra dövlət başçıları Şuşaya gedərkən Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər.

## Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə təkbətək görüşü olub



Sentyabrın 16-da Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə təkbətək görüşü olub.

◆ Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Azərbaycana rəsmi səfəri

# Siyasi əlaqələrin ən yüksək zirvəsi

## Prezidentlər İlham Əliyevin və Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın geniş tərkibdə görüşü olub, Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri sənədləri mübadilə edilib





**Sentyabrın 16-da Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident **İlham Əliyev** dedi:

- Hörmətli cənab Prezident, əziz qardaşım.

Azərbaycana, Qarabağa xoş gəlmisiniz. Əminəm ki, Sizin səfəriniz ölkələrimiz arasındakı qardaşlıq, dostluq əlaqələrinə yeni təkan verəcək. Biz Sizinlə həm Azərbaycanda, həm də Birləşmiş Ərəb Əmirliklərində tez-tez görüşürük. Siz keçən il iki dəfə Azərbaycana səfər etmisiniz. Bu il bir neçə ay bundan əvvəl mən Sizin ölkənizə səfər etmişəm. Bugünkü səfəriniz xüsusi əhəmiyyət daşıyır. Çünki Siz Qarabağa, işğaldan azad edilmiş torpaqlara səfər edirsiniz və bu, bizi, bütün Azərbaycan xalqını çox məmnun edir. Bizim əlaqələrimiz qardaşlıq, dostluq üzərində qurulub. Bu gün imzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. İmzalanmış hər bir sənəd böyük əhəmiyyət daşıyır. Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir.

Bizim siyasi əlaqələrimiz çox uğurla inkişaf edir. Biz hər zaman beynəlxalq təşkilatlarda bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Son vaxtlar qarşılıqlı sərmayə qoyuluşu bizi çox şad edir. Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir. Bu gün imzalanmış sənədlər arasında nəqliyyat sektorundakı əməkdaşlıq böyük perspektivə malikdir. Biz xüsusilə ölkənizə və ölkənizin şirkətlərinə minnətdarıq ki, Azərbaycanın bərpaolunan enerji növlərinin işlənilməsi istiqamətində bizə çox böyük dəstək vermişlər. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri burada bizim strateji tərəfdaşlarımızdır, əsas investordur və Azərbaycanda istifadəyə verilmiş birinci günəş-elektrik stansiyasının tikintisi və investisiyaları ölkənizin bizə dəstəyi nəticəsində mümkün olmuşdur. Bilirsiniz ki, planlarımız daha genişdir, bir neçə gigavat bərpaolunan enerji növünün yaxın gələcəkdə Azərbaycanda istehsalı məhz Sizin şəxsi göstərişinizin və ölkənizin şirkətlərinin fəaliyyəti nəticəsində mümkün olacaqdır.

Digər investisiyayönümlü layihələr üzərində işləyirik. Bugünkü nümayəndə heyətlərinin tərkibi özlüyündə bir göstəricidir. Bu göstərir ki, bizim əlaqələrimiz nə qədər çoxşaxəlidir, nə qədər dərindir, səmimidir və məhsuldardır.

Əziz qardaşım, Qarabağa səfər etdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Azərbaycana, Qarabağa xoş gəlmisiniz!

❖ ❖ ❖

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti **Şeyx Məhəmməd bin Zayed Al Nəhyan** çıxış edərək dedi:

- Əziz qardaşım, cənab Prezident.

Dost ölkənizə səfər etməyim və Sizinlə görüşməyim məni həqiqətən çox sevindirib. Qonaqpərvərliyinizə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bugünkü görüşümüz bizim bu il ərzində üçüncü görüşümüzdür. Həqiqətən, bizim bu ilin iyul ayında Əbu-Dabidəki görüşümüz çox səmərəli və ikitərəfli əməkdaşlığımızın yeni mərhələsinin əsası oldu. İnşallah, ikitərəfli əməkdaşlığımız və əlaqələrimiz, dostluğa, xeyir-bərəkətə əsaslanan münasibətlərimiz ölkələrimizin və xalqlarımızın rifahının daha da artması istiqamətində davam edəcəkdir.

Qardaşım, cənab Prezident, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında münasibətlər ötən onilliklər ərzində ardıcıl inkişaf etmişdir və xüsusilə də qeyri-neft sektorunda ticarət dövriyyəsi 2024-cü ildə 2,24 milyard dollara qədər artmışdır.

İyul ayında ölkələrimiz hərtərəfli iqtisadi əməkdaşlıq haqqında saziş imzalamışdır. Bu sənəd iqtisadi əlaqələrimizə yeni bir təkan vermişdir. İnşallah, bizim müştərək iqtisadi hədəflərimizi həyata keçirmək üçün onun çox böyük təsiri olacaqdır. Biz Birləşmiş Ərəb Əmirliklərində bu əməkdaşlığı genişləndirməyə davam etməkdə maraqlıyıq, ələlxüsus da inkişaf sektoruna aid olan iqtisadiyyat və bərpaolunan enerji, qida təhlükəsizliyi, həmçinin mədəniyyət sahələrində və əlbəttə ki, digər əhəmiyyətli sahələrdə. Çünki bu sahələr bizim gələcəyimiz üçün çox böyük nəticələr vəd edir.

Cənab Prezident, dost ölkənizlə ikitərəfli əlaqələrimizi gücləndirmək və genişləndirmək üçün xüsusi və böyük marağımız var, onu daha yüksək səviyyəyə qaldırmağı arzulayırıq. Biz hər iki tərəfə fayda gətirəcək və davamlı inkişafa töhfə verəcək yeni əməkdaşlıq fürsətlərinin daim axtarışındayıq.

Cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, enerji sahəsində əməkdaşlığımızda indiyədək əldə etdiyimiz irəliləyişlər məni çox sevindirir. Şübhə yoxdur ki, bu gün ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlığa dair imzalanmış bəyannamə hər iki tərəfin qarşılıqlı münasibətlərini daha da inkişaf etdirmək və yüksək səviyyəyə qaldırmaq iradəsini əks etdirir.

Cənab Prezident, Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında mədəniyyət sahəsində əməkdaşlığın böyük əhəmiyyəti var. Belə ki, bu sahə ikitərəfli əlaqələri inkişaf etdirməyin mühüm istiqamətidir. Çünki hər iki ölkə mədəni mübadilənin xalqlararası münasibətlərin və əməkdaşlığın körpüsü olduğuna inanmaqla, öz zəngin, çoxnövlü mədəni mirasını qorumaqda maraqlıdır.

Qardaşım, cənab Prezident, Birləşmiş Ərəb Əmirlikləri Qafqaz regionunda sülh və əmin-amanlığın bərqərar olmasına çox böyük əhəmiyyət verir, Azərbaycan başda olmaqla, bütün xalqların mənafeyi üçün bölgənin bütün ölkələri ilə əlaqələrini və əməkdaşlığını inkişaf etdirməkdə maraqlıdır. Bu xüsusda Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsinin imzalanması istiqamətində əldə edilmiş nailiyyətlərin və müsbət inkişafın davam etməsini səbirsizliklə gözləyirik. Bu münasibətlə Birləşmiş Ərəb Əmirlikləri dövlətinin regionda sülhün və əmin-amanlığın bərqərar olmasına, buradakı xalqların sülh şəraitində yaşamasına hər cür dəstək verməyə hazır olduğunu bir daha vurğulayırıq.

Çıxışımın sonunda qardaşım, cənab Prezident, qonaqpərvərliyinizə görə Sizə bir daha təşəkkürümü bildirir, dost ölkənizə və xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram. Çox sağ olun.

❖ ❖ ❖

Sonra Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın iştirakı ilə mübadiləsi mərasimi olub.

İmzalanmış sənədləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Birləşmiş Ərəb Əmirliklərinin dövlət naziri Səid Əl Haceri mübadilə etdilər.

Qeyd edək ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə", "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə Nazirliyi arasında işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Birləşmiş Ərəb Əmirliklərinin Federal Dövlət Prokurorluğu arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Media Şurası arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat və Turizm Nazirliyi arasında turizm əməkdaşlığı haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Ticarət və Sənaye Palataları Federasiyası arasında Azərbaycan-BƏƏ Birgə Biznes Şurasının yaradılması haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında Azərbaycan Respublikasının "yaşıl enerji" zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə "Presight" şirkəti arasında Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyasının icrası üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", "Bakı Gəmiqayırma Zavodu" MMC ilə "Əbu-Dabi Limanları Şirkəti" ASC arasında iki ədəd konteyner gəmisinin tikintisinə və satışına dair Müqavilə", "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə "Presight" şirkəti arasında təhsildə süni intellektin (Aİ) istifadəsinin artırılması sahəsində Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə XRG ASC arasında "Cənub qaz dəhlizi"ndə investisiya haqqında Anlaşma Memorandumu" və "Azərbaycan İnvestisiya Holdinqi ilə "Əbu-Dabi İnkişaf Holdinq Şirkəti" ASC arasında "Azər-Türk Bank"ın sərmayələşdirilməsi haqqında Anlaşma Memorandumu" imzalanıb.

## Azərbaycan və Birləşmiş Ərəb Əmirliklərinin prezidentləri Şuşada Azərbaycanın tanınmış şəxsiyyətlərinin güllələnmiş heykəllərinə baxıblar





**Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin erməni işğalçıları tərəfindən güllələnmiş heykəllərinə baxıblar.**

AZƏRTAC bildirir ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə ermənilərin işğal zamanı bu heykəlləri Ermənistana apararaq orada əritmək istədikləri barədə məlumat verilib. Ümummilli Lider Heydər Əliyevin müdaxiləsi nəticəsində bu heykəllər Ermənistandan alınaraq ölkəmizə gətirilib. Bir müddət Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan heykəllər Şuşa işğaldan azad olunduqdan sonra öz əvvəlki yerlərinə qaytarılıb.

## Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin prezidentləri Milli Xalça Muzeyinin Şuşa filialında olublar

**Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Milli Xalça Muzeyinin Şuşa filialında olublar.**

AZƏRTAC xəbər verir ki, ali qonağa filialın fəaliyyəti barədə məlumat verildi.

Bildirildi ki, Milli Xalça Muzeyinin Şuşa filialının XIX əsrin ikinci yarısında tikilmiş binası şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı.



İşğal dövründə Azərbaycan Milli Xalça Muzeyi filialda saxlanılan sənət nümunələrinin təhlükədə olduğunu nəzərə alaraq, 1992-ci il fevralın 29-da onların təxliyəsini təşkil etmişdi. Beləliklə, Şuşa filialının kolleksiyasındakı 246 eksponatdan 183-ü Bakıya gətirilmişdi. Şəhər işğal altında olduğu dövrdə Şuşa filialı öz fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirirdi. İndi burada vaxtilə təxliyə olunmuş və əsasən XVIII-XX əsrlərə aid eksponatlarla yanaşı, son illər filialın kolleksiyasına daxil edilən dəyərli xalçalar da sərgilənir. Muzeydə ümumilikdə 115 ədəd xovlu və xovsuz xalça, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, zərgərlik və bədii metal nümunələri yenidən nümayiş olunur.

◆ Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Azərbaycana rəsmi səfəri

# Siyasi əlaqələrin ən yüksək zirvəsi

## Prezident İlham Əliyev və Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan sentyabrın 16-da Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.**



AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə həyata keçirilən işlər barədə məlumat verdi.





Qeyd edək ki, təməli 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulan bu məscid tarixi şəhər olan Şuşada modern memarlıq nümunəsi kimi seçiləcək. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, məscidin forması 8 rəqəmini əks etdirəcək ki, bu da Şuşanın işğalçılardan azad olunduğu günü - Zəfər Gününü simvolizə edəcək. Şuşanın və Qarabağın işğaldan ilin on birinci ayında azad edilməsinin rəmzi kimi məscidin iki minarəsi 11 rəqəmi formasında olacaq. Şəhərin yuxarı hissəsində inşa olunan bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək.

## Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin prezidentləri Şuşa qalasının önündə foto çəkdiriblər




Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Şuşa qalasının önündə foto çəkdiriblər.

## Prezidentlər İlham Əliyev və Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Cıdır düzündə Qarabağ atlarının şousunu izləyiblər



**Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Cıdır düzündə Qarabağ atlarının şousunu izləyiblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə "Ərgünəş" adlı Qarabağ atını hədiyyə edib.











## Şuşada Prezident İlham Əliyevin adından Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin şərəfinə rəsmi nahar verilib

Sentyabrın 16-da Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın şərəfinə rəsmi nahar verilib.



## Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb







**Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi səfəri sentyabrın 16-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı yola saldı.

# *Müstəqilliyimiz əbədidir:* Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır




**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 9-cu kitabı çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, bu kitabda yer alan materiallar 1995-ci il sentyabrın 20-dən noyabrın 26-dək olan dövrü əhatə edir. Nəşrdə Ulu Öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri və məktubları toplanıb.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclaslarında iştirak edirdi. Komissiyanın iclaslarından biri də 1995-ci il oktyabrın 3-də keçirilmişdi. Həmin iclasda çıxış edən Ulu Öndər Heydər Əliyev demişdi: "Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin Konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu proseslərini və bunu təmin etmək üçün bütün şərtləri, müddəaları Konstitusiya özündə əks etdirməlidir".

Bu cilddə Ulu Öndərin 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasına və Milli Məclisə seçkilərə səsvermədə iştirakı zamanı mətbuata bəyanatı, Milli Məclisin ilk iclasında geniş nitqi də verilib. Həmin nitqində Ümummilli Lider Azərbaycanda hakimiyyətin mənbəyinin xalq olduğunu bir daha vurğulayaraq demişdi: "Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və hər bir hakimiyyət ancaq xalqın iradəsi əsasında əldə oluna bilər. Hakimiyyətin təşkil olunması Konstitusiyada hakimiyyətin səlahiyyət bölgüləri əsasında nəzərdə tutulubdur: qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə hakimiyyəti. Bu prinsip XVIII əsrdə fransız filosofları Jan-Jak Russo, Monteskye, Didro və digərləri tərəfindən sübut olunub, əsrlərin sınağından keçib, dünyanın demokratiya sahəsində inkişaf etmiş ölkələrində hökm sürür və biz də bu prinsipi demokratik hüquqi dövlət yaratmaq üçün və respublikamızda demokratiyanı inkişaf etdirmək üçün, vətəndaşların, insanların hüquqlarını qoruyub təmin etmək üçün əsas götürmüşük".

Oxucu bu kitabda Heydər Əliyevin BMT-nin 50 illik yubileyi ilə əlaqədar Nyu Yorkda BMT Baş Məclisinin xüsusi təntənəli iclasında çıxışının mətni ilə də tanış ola bilər.

Ümummilli Lider müstəqilliyini yeni əldə etmiş Azərbaycanın xarici ölkələrlə ikitərəfli əlaqələrinin inkişafını daim diqqət mərkəzində saxlayırdı. Ulu Öndərin 1994-cü ildə Çinə rəsmi səfəri zamanı iki ölkə arasında bir sıra sənədlər imzalanmışdı. 1995-ci il sentyabrın 29-da isə Çin Xalq Respublikasının yaranmasının 46-cı ildönümü münasibətilə Bakıda rəsmi qəbul keçirildi. Qəbulda iştirak edən Ulu Öndər iki ölkə arasında dostluq əlaqələrinin yarandığını söyləmiş, həmçinin Çinin BMT Təhlükəsizlik Şurasının üzvü kimi fəaliyyətini yüksək qiymətləndirərək demişdi: "Çin Xalq Respublikası ilə Azərbaycan arasında dostluq əlaqələri yaranıbdır. Çin BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Çin bu beynəlxalq təşkilatın Təhlükəsizlik Şurasında həmişə ölkələrin, xalqların milli azadlıq və öz dövlət müstəqilliyini əldə etmək səylərinə tərəfdar olubdur. Azərbaycan Respublikası yaranandan Çin respublikamızın milli azadlığını, dövlət müstəqilliyini tanıyıb və beynəlxalq təşkilatlarda, xüsusən BMT-də ölkəmizlə sıx əməkdaşlıq edib".

Heydər Əliyev müstəqillik əldə etmiş türk respublikalarının xoşbəxt sabahına inanır, türk dünyasının yeni yüksəliş mərhələsi yaşadığını söyləyirdi. 1995-ci il sentyabrın 30-da Türk Xalqlarının III Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının iştirakçılarına təbrik məktubunda Ulu Öndər bildirirdi: "Tarixin ağır sınaqlarına zaman-zaman sinə gərmiş türk xalqları qarşılıqlı elmi, mədəni, iqtisadi və siyasi əlaqələrini qoruyub saxlamış, bəşər tarixində daim önəmli mövqe tutmuşlar. Müasir türk dünyası yeni yüksəliş mərhələsini yaşayır. Bu gün suverenlik əldə etmiş gənc türk cümhuriyyətlərinin bir sırada inamlı addımları türk dünyasının xoşbəxt sabahından soraq verir. Əminəm ki, türk xalqlarının III qurultayı da bu müqəddəs arzu və istəklərin həyata keçirilməsində mühüm rol oynayacaq. Müstəqil inkişaf yoluna qədəm qoyan Azərbaycan Cümhuriyyəti də suverenliyini əldə etdiyi ilk gündən türk dünyasının möhkəmlənməsinə sədaqətlə xidmət etmiş və bundan sonra da edəcəkdir".

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# Milli Məclisin Sədri Sahibə Qafarova Malayziyaya işgüzar səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti sentyabrın 16-da Malayziyanın Kuala Lumpur şəhərinə səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Kuala Lumpur Beynəlxalq Hava Limanında nümayəndə heyətini Senatın vitse-prezidenti Datuk Nur Jazlan bin Tan Sri Mohamed, Senatın katibi Muhd Sujairi bin Abdullah, Nümayəndələr Palatasının katibi Nizam Maydin bin Baça Maydin, Azərbaycanın Malayziyadakı səfiri İrfan Davudov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfərdə Milli Məclisin Sədri Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının 46-cı Baş Assambleyasının sessiyasında iştirak edəcək.

Sahibə Qafarovanın sessiyada çıxışı, tədbirdə iştirak edən parlament nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

***"Azərbaycan"***

# Regional məsələlər komitəsinin iclasında 3 məsələ müzakirə olunub

Sentyabrın 16-da Milli Məclisin Regional məsələlər komitəsinin 2025-ci ilin payız sessiyasında ilk iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Siyavuş Novruzov sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib, onlara növbəti sessiyada uğurlar arzulayıb və gündəliyə 3 məsələnin daxil edildiyini bildirib.

Komitə sədri əvvəlcə 2025-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Regional məsələlər komitəsində görülmüş işlər barədə hesabatı təqdim edib. Qeyd edilib ki, ötən sessiyada 9 iclas keçirilib, ümumilikdə 17 məsələyə baxılıb. Siyavuş Novruzov komitəyə vətəndaşlardan 1742 müraciətin daxil olduğunu, bunlardan bir qisminin icrasının təmin edildiyini, bir qisminin isə baxılması üçün aidiyyəti orqanlara göndərildiyini bildirib. Daha sonra gündəliyin ikinci məsələsi - Regional məsələlər komitəsinin 2025-ci ilin payız sessiyası üçün iş planının layihəsi barədə məlumat verilib. Komitə sədri bildirib ki, gələn sessiyada qanunvericilik təşəbbüsü əsasında təqdim olunan qanun layihələri müzakirə olunacaq, vətəndaşlarla mütəmadi görüşlər təşkil ediləcək və aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq davam etdiriləcək.

Siyavuş Novruzov gündəliyin sonuncu məsələsi - "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, sənəd qanunun təkmilləşdirilməsi və normanın daha aydın və dəqiq ifadə edilməsi məqsədilə hazırlanıb.

Müzakirələr zamanı Regional məsələlər komitəsinin üzvləri Aydın Mirzəzadə, Tahir Rzayev, Səttar Möhbalıyev, Elman Məmmədov, Məzahir Əfəndiyev, Vasif Qafarov, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş Baş idarəsinin rəisi Elmin Həsənov, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Təmraz Tağıyev, Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Hümbət Hüseynov, "Bələdiyyələrin Fəaliyyətinin Təbliği" İctimai Birliyinin sədri Vüqar Cəfərov çıxış edərək məsələlərlə bağlı fikirlərini söyləyiblər, təkliflərini irəli sürüblər.

Tədbirin sonunda ötən sessiyada görülmüş işlər məqbul hesab edilib, komitənin 2025-ci ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq olunub, qanun layihəsi isə Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

# Polis Akademiyasında Bilik Günü və andiçmə mərasimi keçirilib



Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Bilik Günü və I kurs kursantlarının "Polis Andı"nı qəbul etmələri münasibətilə təntənəli mərasim keçirilib. Tədbirə başlamazdan öncə torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan igid oğullarımızın, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olan polislərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının Dövlət Himni ifa edilib.

Mərasimi giriş sözü ilə açan Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov tədbir iştirakçılarını salamlayaraq yeni tədris ilinin başlanması münasibətilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazovun təbrik və tövsiyələrini şəxsi heyətə çatdırıb. Ötən dövr ərzində əldə olunmuş nailiyyətlərə toxunan akademiya rəisi müasir meyarlara cavab verən təhsil prosesinin həyata keçirilməsi və milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə edilən peşəkar polis kadrlarının hazırlığı istiqamətində qarşıya qoyulmuş vəzifələrin bundan sonra da əzmlə yerinə yetiriləcəyini vurğulayıb.

Tədbirin davamı olaraq 2024-2025-ci tədris ilini müvəffəqiyyətlə başa vuraraq tədris və idman nəticələrinə görə Polis Akademiyasının kursantları arasında "Əlaçı kursant" və ll dərəcəli "İdmançı kursant" döş nişanlarına layiq görülmüş, habelə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən lll ixtisas qrupu üzrə keçirilmiş imtahanlarda 650 və yuxarı bal toplayaraq Polis Akademiyasına qəbul olmuş gənc kursantlara döş nişanları və qiymətli hədiyyələr təqdim edilib.

Sonra 2024-2025-ci tədris ilini "Əlaçı" döş nişanı ilə başa vurmuş 4-cü kurs kursantı Elbrus Abbasov çıxış edərək göstərilən qayğı, etimad və dəstəyə görə akademiya rəhbərliyi və elmi pedaqoji kollektivinə öz təşəkkürlərini çatdırıb. Mərasim I kurs kursantlarının "Polis Andı"nı qəbul etmələri ilə davam edib. Daha sonra I kurs kursantı Hacıalı Hacıyev çıxış edərək bu əlamətdar gün münasibətilə kurs yoldaşlarını təbrik edib. Tədbirin davamında marş sədaları altında şəxsi heyət təntənəli keçidlə tribunanın qarşısından keçib.

Sonda Polis Akademiyasının şəxsi heyəti Bilik Gününə və I kurs kursantlarının "Polis Andı"nı qəbul etmələrinə həsr olunan fləşmob keçirib.

***"Azərbaycan"***

# Vəkillərin fəaliyyətinin hüquqi əsasları təkmilləşdirilir

Sentyabrın 16-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Əli Hüseynli gündəliyə 7 məsələnin daxil edildiyini bildirib.

Komitə sədri əvvəlcə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində cari ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə hesabatı təqdim edib, sonra komitənin cari ilin payız sessiyası üçün iş planı barədə məlumat verib. Diqqətə çatdırılıb ki, sənəddə qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinə baxılması və digər məsələlər nəzərdə tutulub.

Gündəliyin üçüncü məsələsi olan Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəllədə, Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı komitə üzvü Bəhruz Məhərrəmov məlumat verib. O bildirib ki, layihə Vəkillər Kollegiyasının və vəkillərin fəaliyyətinin hüquqi əsaslarını təkmilləşdirmək məqsədilə hazırlanıb.

"Dövlət xidmətləri haqqında" qanun layihəsini (birinci oxunuş) komitənin üzvü Kamal Cəfərov təqdim edib. Bildirilib ki, yeni qanun layihəsi dövlət xidmətləri sahəsindəki fəaliyyətin təşkilati, hüquqi, iqtisadi əsaslarını müəyyən edir və bu sahədə münasibətləri tənzimləyir. Layihədə dövlət xidmətlərinin göstərilməsi qaydaları, tələbləri ilə bağlı təsbit olunan müddəalar barədə məlumat verən Kamal Cəfərov vurğulayıb ki, bu xidmətlərin qiymətləndirilməsi və keyfiyyətinə nəzarət mexanizmləri də sənədin ən vacib məqamlarındandır.

Gündəliyin beşinci məsələsi olan "Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı çatdıran Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid dövlət qulluğuna qəbul sahəsində yaranan münasibətlərin daha dəqiq və aydın tənzimlənməsi üçün sənəddə təklif olunan dəyişikliklər barədə danışıb.

Altıncı məsələni - Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) deputat Əminə Ağazadə təqdim edib. O bildirib ki, sənəd keçən il qüvvəyə minmiş Rəqabət Məcəlləsinin icrası ilə əlaqədar hazırlanıb. Belə ki, Cinayət Məcəlləsinin "İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma" maddəsi yeni redaktədə təklif olunub, həmçinin bəzi anlayışların yeni izahı təsbit olunub.

Gündəliyin sonuncu məsələsi - "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə layihə haqqında komitə sədri Əli Hüseynli məlumat verib. Bildirilib ki, layihə artıq qanunvericilikdə təsbit olunan uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalarla bağlı müddəalara uyğunlaşdırma xarakterlidir.

Sənədlərin müzakirəsində komitə sədri Əli Hüseynli, komitə sədrinin müavini Elşən Musayev, deputat Erkin Qədirli, Vəkillər Kollegiyası sədrinin müavini Şahmar Məmmədov çıxış edərək gündəlikdəki məsələlərə münasibət bildiriblər, fikirlərini səsləndiriblər.

İclasda ötən sessiyada komitədə görülmüş işlər məqbul hesab olunub, komitənin qarşıdakı sessiya üçün iş planının layihəsi təsdiqlənib və qanun layihələrinin hamısı baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

# YAP nümayəndə heyətinin Çinə səfəri başa çatıb

Çin Xalq Respublikasında səfərdə olan Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti 13-16 sentyabr tarixlərdə Çjetsyan vilayətinin paytaxtı Hancou şəhərindəki Çin Kommunist Partiyası vilayət komitəsinin partiya məktəbində bu ölkənin elmi-texniki nailiyyətləri və inkişaf təcrübəsinə həsr olunmuş seminarlara qatılıb.



Seminarlarda innovasiyalar tətbiq etməklə inkişaf strategiyalarının həyata keçirilməsi, idarəetmə sistemində islahatların dərinləşdirilməsi, rəqəmsal transformasiya və digər mövzular ətrafında elmi-nəzəri və praktik məsələlər diqqətə çatdırılaraq fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin, həmçinin Hancou Dəmiryolu Stansiyasının Sürətli Qatarlar Muzeyi, Qərbi Hancou Dəhlizinin Elmi və Texnoloji İnkişaf üzrə İnnovasiya Sərgi Zalı və Vətəndaş Xidməti Mərkəzini ziyarəti, eləcə də Sihu gölündə gəzintisi təşkil olunub.

Səfər sentyabrın 17-də başa çatıb.

***"Azərbaycan"***

# Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur

## Qalib Lider misli görünməyən layihələri reallaşdırır




Ərazi bütövlüyümüz təmin edildikdən sonra Cənubi Qafqazda əsas söz sahibinə çevrilən Azərbaycan həm də regional və beynəlxalq mövqelərini getdikcə möhkəmləndirir, iqtisadi sahədə ciddi irəliləyişlərə nail olur. Dövlətin iqtisadi qüdrətinin artması isə işğaldan azad edilən torpaqlarımızda möhtəşəm tikinti-quruculuq işlərinin daha da sürətlənməsinə müsbət impuls verir.

Qarabağ və Şərqi Zəngəzuru "dəmir yumruq"la alan Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfərimizdən ötən beş ilə yaxın müddətdə bu ərazilərdə misli görünməyən quruculuq işlərini həyata keçirməkdədir. Erməni vandalizminin qurbanına çevrilmiş şəhər və kəndlərin yenidən, daha müasir formada qurulması, tamamilə dağıdılmış infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının təmin edilməsi Azərbaycan dövlətinin prioritet fəaliyyət istiqamətlərindəndir.

Hər gün demək olar ölkəmizin müxtəlif istiqamətlərindən köç karvanı Qarabağa, Şərqi Zəngəzura yola salınır. Həyata keçirilən böyük layihələrin nəticəsi olaraq Qarabağda və Şərqi Zəngəzurda bərpa edilmiş yaşayış məntəqələrinin və daimi yaşamaq üçün bu yerlərə qayıdan məcburi köçkünlərin sayı sürətlə artmaqdadır.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında indi quruculuq işləri ilə bərabər, kənd təsərrüfatının inkişafı da geniş vüsət alıb. Doğma yurdlarına qayıdan vətəndaşlar artıq bu imkanlardan istifadə edirlər. Eyni zamanda ən müasir texnologiyaların tətbiqi nəticəsində bu ərazilərdə taxılçılıq, meyvəçilik, bostançılıq, üzümçülük və digər sahələrin inkişafı da geniş vüsət alır.

Sentyabrın 14-15-də Prezident İlham Əliyevin Qarabağa səfəri çərçivəsində reallaşan təməlqoymalar, açılışlar və keçirilən görüşlərdə səslənən fikirlər bir daha təsdiq edir ki, Qarabağ və Şəqri Zəngəzur qısa zamanda cənnətməkana çevrilir.

Öncə dövlət başçısı Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin təməlini qoydu, Xocavənd rayonunun Hadrut və Qırmızı Bazar qəsəbələrində, Sos kəndində oldu, Hadrut qəsəbəsində inşa edilmiş məscidin açılışını etdi. Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşdü.

Xocavənd rayonunun azadlığından söz açan Prezident bildirdi ki, iki il öncə sentyabrın 19-20-də şanlı ordumuz separatçılığa son qoyub. Onunla da separatçılığın kitabı bağlanıb və Azərbaycan tam suverenliyini bərpa edib: "2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik".

Hazırda Böyük Qayıdışa dair Dövlət Proqramının uğurla icra edildiyini söyləyən ölkəmizin rəhbəri vurğuladı ki, son beş ilin tarixi Zəfər tarixidir. Bu müddət ərzində keçmiş məcburi köçkün soydaşlarımıza yeni mənzillər tikilib. Bütün şərait təmin edilib - su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar salınıb: "Ən önəmlisi bura doğma Qarabağ diyarıdır. Burada, sadəcə olaraq, rahat yaşamaq, qurub-yaratmaq, uşaqları böyütmək, onlara yaxşı tərbiyə vermək üçün bütün şərait var. Yəni artıq Azərbaycan xalqı bundan sonra sülh içində yaşayacaq. Amma sülh şəraitində yaşamaq üçün, əlbəttə ki, güc lazım idi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bilirsiniz, biz uzun illər çalışırdıq ki, Qarabağ münaqişəsi sülh yolu ilə həll olunsun. Ancaq Ermənistan tərəfi, onun arxasında duranlar başqa fikirdə idilər. Yəni onlar torpağımızı geri qaytarmaq fikrində deyildilər. Onlar və onların arxasında duranlar, böyük dövlətlərin rəhbərləri onlara ürək-dirək verərək elə bil ki, bu işğalı daimi etmək istəyirdilər. Amma bir şeyi hesablaya bilməmişdilər, o da Azərbaycan xalqının iradəsi, gücü, Vətən torpağına olan bağlılığı, Azərbaycan əsgərinin şücaəti, qəhrəmanlığı və xalqımızın birliyidir. Onu hesablaya bilməmişdilər. Əgər Ermənistan rəhbərliyi vaxtında mənim sözlərimə baxıb bizim torpaqlardan öz xoşu ilə çıxsaydı, İkinci Qarabağ müharibəsinə, antiterror əməliyyatına ehtiyac qalmazdı, üç mindən çox şəhidimiz olmazdı".

Prezident dedi ki, artıq bütün dünya Azərbaycan xalqın güclü, iradəli, döyüş meydanında qələbə qazanmış xalq olaraq tanıyır. Sülhə də hər zaman hazır idik. Amma sülh ədalətli sülh olmalı idi, beynəlxalq hüquq və tarixi ədalət üzərində sülh olmalı idi. Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi.

Bu gün bütün dünyanın Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıdığını vurğulayan Müzəffər Ali Baş Komandan bildirdi ki, 44 gün və bir gün - heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmayıb.

Prezidentin dediyi kimi, Qarabağda və Şərqi Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Bu da ilk növbədə dövlətin iqtisadi qüdrətinin göstəricisidir. Heç bir təşkilatdan, hansısa dövlətdən yardım almadan öz gücünə işğaldan azad edilən torpaqlarda möhtəşəm tikinti-quruculuq işləri aparan Azərbaycan əbəs yerə dünyanın fəal aktorları sırasında yer almayıb. Bunun da səbəbi ilk növbədə Prezident İlham Əliyevin müstəqil və qətiyyətli siyasəti, Azərbaycanın etibarlı tərəfdaşlığı və ölkəmizin iqtisadi qüdrətidir.

Prezident sentyabrın 15-də Xocalıya səfər edib. Burada dövlət başçısı Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib, Daşbulaq kəndində tut bağında görülmüş işlərlə tanış olub. Həmçinin rayonun Daşbulaq, Seyidbəyli, Şuşakənd, Badara kəndlərində olub.

Həmin gün Xocalının Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşən Prezident onları təbrik edib və yeni evlərində yalnız sevincli günlər yaşamalarını arzulayıb: "Azərbaycan dövləti sizin üçün bütün şəraiti yaradıb. Evlər gözəl təmir olunur, bütün infrastruktur - yollar, təbii qaz və elektrik enerjisi, su. Ən önəmlisi isə siz doğma Qarabağ diyarında artıq əbədi yaşayacaqsınız - siz və sizin davamçılarınız. Bu, ədalətin təntənəsidir. Biz ədaləti bərpa etdik, ilk növbədə, öz haqqımızı bərpa etdik, erməni işğalına son qoyduq".

Dövlət başçısı onu da dedi ki, uzun illər köçkün həyatı yaşamış insanlar ən gözəl şəraitə layiqdirlər. Bu gün Azərbaycan dövləti öz qüdrəti hesabına Qarabağ və Şərqi Zəngəzurda xariqələr yaradır.

Böyük Zəfərin 5 illik yubileyi, suverenliyin tam olaraq bərpasının 2-ci ilində Azərbaycan dünyaya necə qüdrətli dövlət olduğunu bir daha nümayiş etdirir. Bütün bunlar şanlı Zəfərimizin təntənəsidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Yeni həyatın nəfəsi azad torpaqlarda hiss olunur

Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı Azərbaycan dövlətinin prioritetlərindən biri olaraq qalır. Bu ərazilərin yenidən qurulması istiqamətində dövlət büdcəsindən ayrılan vəsaitlər Vətən müharibəsindən sonra da daim diqqət mərkəzində saxlanılır.

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan azad olunmuş torpaqlarda əsasən öz maliyyə imkanlarına əsaslanaraq genişmiqyaslı layihələr həyata keçirir. Bütün bunlar isə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasının daha da sürətlənməsinə imkan verir.



"2020-ci ildən etibarən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işlərinə ümumilikdə 22 milyard manata yaxın vəsait yönəldilib, təkcə 2025-ci il üçün bu məbləğ 4 milyard manat təşkil edir. 2026-cı ilin sonunadək Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində 140 minədək insanın bu ərazilərə köçürülməsi planlaşdırılır. Bütün bu rəqəmlər Azərbaycanın dayanıqlı və güclənən iqtisadi imkanlarını aydın şəkildə əks etdirir",- deyə o əlavə edib.

K.Bayramov qeyd edib ki, dövlət başçısının tapşırığı ilə keçmiş məcburi köçkün ailələrinin doğma yurdlarına qayıdışı ardıcıl şəkildə həyata keçirilir. Otuz ilə yaxın davam edən işğal dövründə dağıdılmış şəhər və kəndlər, talan olunmuş infrastruktur və məhv edilmiş maddi-mədəni irs bərpa edilir, torpaqlara həyat qayıdır. Prezident İlham Əliyev bu prosesi yalnız fiziki məskunlaşma kimi deyil, eyni zamanda ədalətin, hüququn və tarixi həqiqətin bərpası kimi qiymətləndirir. Dövlət bütün imkanlarını səfərbər edərək azad edilən ərazilərdə müasir şəhərsalma prinsiplərinə uyğun "ağıllı kənd" və "ağıllı şəhər" modellərini həyata keçirir.

Deputat vurğulayıb ki, qısa müddətdə inşa olunan yollar, məktəblər, xəstəxanalar, enerji xətləri və digər infrastruktur vətəndaşların təhlükəsiz və layiqli yaşayışını təmin etməyə yönəlib: "Bu bərpa prosesi yalnız Azərbaycan üçün deyil, bütövlükdə region üçün sülh, əməkdaşlıq və davamlı inkişaf baxımından önəmli bir nümunəyə çevrilir. Sentyabrın 14-də Prezident İlham Əliyev Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə bildirib: şadam ki, siz artıq öz doğma dədə-baba torpağınıza gəlmisiniz, yerləşmisiniz. Sizin üçün burada şərait yaradılıb, evlər tikilib, təmir edilib. Bütün şərait var - su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar. Ən önəmlisi bura doğma Qarabağ diyarıdır".

Deputat bildirib ki, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında tikinti və infrastruktur layihələrinin uğurla icrası bu bölgələrin sürətlə canlanmasına şərait yaradıb. Zəngilanın Ağalı kəndindən başlanan köç prosesi artıq digər işğaldan azad edilmiş əraziləri də əhatə edir. Məcburi köçkünlər illər sonra doğma torpaqlarına sevinc və fərəh hissi ilə qayıdır, burada həyat yenidən qurulur. Yurdlarına dönən keçmiş məcburi köçkünlərdən əlavə, bölgələrdə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları, mütəxəssislər və müxtəlif sahələr üzrə işçilər də burada məskunlaşıb. Bu, Böyük qayıdışın artıq praktiki mərhələyə keçdiyini göstərir. "Prezident İlham Əliyev Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin təməlini qoyduqdan sonra Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi, Hadrut qəsəbəsi və Sos kəndinin sakinləri ilə səmimi görüş keçirib. Dövlət başçısı bu görüş zamanı sakinlərin problemləri ilə maraqlanıb, onların qayğı və ehtiyaclarını dinləyib, gələcək planlarla bağlı mühüm mesajlar verib. Prezident Xocalı rayonunun Seyidbəyli, Daşbulaq və Badara kəndlərinin bərpası və məskunlaşdırılması ilə bağlı görüləcək işlərdən də bəhs edərək, Böyük qayıdış proqramının növbəti mərhələlərinin konkret icrasına diqqət çəkib. Bu görüşlər bir daha göstərdi ki, Azərbaycan dövləti işğaldan azad olunmuş bütün ərazilərin dirçəldilməsi və sakinlərin doğma torpaqlarına ləyaqətli şəkildə geri dönüşünü təmin etmək istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirir", - deyə o əlavə edib.

K.Bayramov əlavə edib ki, Xocalının və digər azad edilmiş ərazilərin yenidən qurulması təkcə bərpa prosesi deyil, Azərbaycanın gücünü, qətiyyətini və milli iradəsini əks etdirən strateji və mənəvi yük daşıyan bir vəzifədir. Bu torpaqlara həyatın qayıdışı həm xalqımızın tarixi yaddaşına sədaqətinin, həm də gələcək nəsillərə dayanıqlı, təhlükəsiz və firavan bir mühit yaratmaq əzminin bariz nümunəsidir. Dövlətimizin həyata keçirdiyi bu siyasət, Cənubi Qafqazın sülh, əməkdaşlıq və inkişaf məkanı kimi formalaşmasına xidmət edir.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Zəfər tarixinin quruculuq səhifəsi

Prezident İlham Əliyev Azərbaycanın hərbi-siyasi qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması ilə bağlı xalqa müraciətində bildirmişdi ki, məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. Həmin müraciətdən ötən beş ilə yaxın dövrün reallıqları bu hədəfin artıq gerçəkləşdiyini təsdiqləyir. Keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması, orada yüksək yaşayış şəraitinin təmin edilməsi üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Böyük qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlər yenidən tikilir, müasir infrastruktur layihələri icra olunur, yeni yollar salınır, istehsal müəssisələri yaradılır, məşğulluğun təmin edilməsi üçün lazım olan bütün zəruri tədbirlər görülür, bu torpaqlara qayıdış mərhələ-mərhələ gerçəkləşdirilir. Hazırda Qarabağ və Şərqi Zəngəzura köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan tələbələr də daxil olmaqla, ümumilikdə, 50 mindən çox insan yaşayır. "Otuz il xalqımız bu günləri böyük səbirsizliklə gözlədi. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra artıq bu reallıqların şahidiyik. Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında bildirir ki, Qarabağ və Şərqi Zəngəzur nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar, müasir, eyni zamanda ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək", - deyə deputat əlavə edib.

Hazırda işğaldan azad edilmiş ərazilərdə şəhərlərin və kəndlərin sürətlə bərpa edildiyini vurğulayan V.Rəhimzadə deyib ki, bütün işləri öz daxili imkanları hesabına həyata keçirən dövlətimizin əsas hədəfi Böyük qayıdış proqramının icrasının birinci mərhələsi başa çatanadək 140 min keçmiş məcburi köçkünün bu torpaqlara qayıdışına nail olmaqdır. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı işlər içərisində infrastruktur layihələri mühüm əhəmiyyət kəsb edir, çünki infrastrukturun yüksək səviyyədə yenidən qurulması həm işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsində, həm də bu torpaqlara qayıdacaq insanların normal həyat şəraiti ilə təmin olunmasında mühüm rol oynayacaq. Bu torpaqlarda üç Beynəlxalq Hava Limanının tikilib istifadəyə verilməsi azad olunmuş ərazilərin strateji əhəmiyyətinin təsdiqidir.

Bu il azad Qarabağın həyatında mühüm hadisələrdən birinin Laçın Beynəlxalq Hava Limanının açılışının olduğunu xatırladan Vüqar Rəhimzadə bildirib ki, bu



hava limanları Qarabağa və Şərqi Zəngəzura gediş-gəlişin asanlaşmasında əhəmiyyətli rol oynayır: "Həmçinin bu torpaqlarımız böyük turizm potensialına malikdir. Azad edilmiş ərazilərimizin yaxın zamanlarda böyük investisiyalar məkanına çevriləcəyi qaçılmazdır. Hər bir ərazinin malik olduğu iqtisadi potensialdan səmərəli istifadə etmək prioritetlər sırasındadır. Dövlət başçısı İlham Əliyevin fərmanı ilə tarixi Zəfərimizin reallıqları əsasında iqtisadi rayonların yeni bölgüsünün həyata keçirilməsində, həmçinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiqlənməsində də məqsədlərdən biri məhz budur".

Deputat 2023-cü ilin 20 sentyabr tarixində suverenliyimizin tam bərpası ilə Azərbaycanın yeni dövrə qədəm qoyduğunu qeyd edərək deyib ki, son iki ildə Xankəndinin, Xocalının, Xocavəndin, Ağdərənin dirçəldilməsi istiqamətində atılan addımların miqyasının genişliyi soydaşlarımızın bu torpaqlara qayıdışında da özünün aydın ifadəsini tapır. Bunun üçün dövlət başçısı İlham Əliyevin sentyabrın 14-də Xocalı, Xocavənd rayonlarına, Xankəndi şəhərinə səfəri çərçivəsində açılışında və təməlqoyma mərasimində iştirak etdiyi, həmçinin görülən işlərlə tanış olduğu obyektlərin say tərkibinə diqqət yetirmək kifayətdir.

V.Rəhimzadə bildirib ki, torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövləti tərəfindən həmin ərazilərimizdə Ermənistan tərəfindən dağıdılmış dini-tarixi abidələrin əvvəlki görünüşünə uyğun bərpası, həmçinin yeni məscidlərin inşası istiqamətində ardıcıl işlər görülür: "Dövlət başçısı Xocavənd rayonunun Sos kəndində, Qırmızı Bazar qəsəbəsində, Xocalı rayonunun Şuşakənd, Seyidbəyli, Daşbulaq, Badara kəndlərində oldu, Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşdü. Səfər çərçivəsində dövlətimizin başçısı Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak etdi. Qarabağ Universitetində Klinikanın yaradılması, həmçinin Tibb və sağlamlıq elmləri fakültəsinin fəaliyyətə başlaması yeni dövrün çağırışlarına uyğun peşəkar tibb mütəxəssislərinin hazırlanması istiqamətində atılmış mühüm addımlardandır. Digər tərəfdən, klinikada həyata keçiriləcək elmi tədqiqatlar Qarabağ Universitetinin akademik nüfuzunun və beynəlxalq reytinqinin artmasına, eləcə də ölkəmizdə tibb elminin inkişafına öz töhfəsini verəcək. Bütün bunlar, eyni zamanda xarici tələbələrin də bu ali təhsil ocağına marağını artıracaq".

V.Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyevin azad edilmiş ərazilərə səfərinin qürurverici məqamlarından biri də doğma yurdlarına qayıdan sakinlərlə görüşü, bu məkanlardan dünənimizə baxış əsasında bu günümüz və gələcəyimizlə bağlı çağırışların səsləndirilməsidir. Bu baxımdan Prezident İlham Əliyevin Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşü də diqqət çəkdi. "Doğrudan da tarixi günlər yaşayırıq" söyləyən Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirdi ki, bu ərazi iki il bundan əvvəl işğalçılardan azad edilib. Elə bu günlərdə - sentyabrın 19-20-də şanlı ordumuz separatçılığa son qoydu. Onunla da separatçılığın kitabı bağlandı və Azərbaycan tam suverenliyini bərpa etdi. Böyük qayıdış proqramı da uğurla icra edilir. Biz təqribən iki aydan sonra tarixi Zəfərimizin beşillik yubileyini qeyd edəcəyik. Son beş ilin tarixi Zəfər tarixidir, şanlı tariximizdir. Artıq Azərbaycan xalqı bundan sonra sülh içində yaşayacaq.

Deputat bildirib ki, bu gün Azərbaycanın sülh gündəliyinin və yeni əməkdaşlıq formatlarının müəllifi kimi tanınması, nüfuz qazanması, Vaşinqton zəfəri ilə dünyanın diqqətində olması özündə mühüm məqamları ehtiva edir: "Azərbaycan hər zaman sülhün, təhlükəsizliyin, əməkdaşlığın tərəfdarı olub. Hazırda imzalanması qaçılmaz olan sülh müqaviləsinin müəllifi də Azərbaycandır. Prezident İlham Əliyev bu reallığı da bəyan etdi ki, son beş ilin tarixi heç bir xarici qüvvənin bizim iradəmizə təsir edə bilmədiyini göstərdi. Çünki bizim işimiz haqq işidir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***





## “Böyük qayıdış” proqramı sürətlə icra olunur







# Prezident İlham Əliyevin Qarabağa hər səfəri bir müjdədir

**Beş il əvvəlin payız günlərini xatırlayaq. O günlərdə hər səhər bir ümidlə açılır, hər axşam isə zəfərlə başa çatırdı. Hər gün bir kəndin, bir qəsəbənin, bir şəhərin azad olunması xəbəri gəlirdi. Xalq sevinc göz yaşları içində qürurla dinləyirdi o xəbərləri. Həmin günlərdə tarix yazılırdı.**

Bu gün isə tarix yenidən yazılır - bu dəfə bərpa və quruculuqla. O vaxt azad etdiyimiz kəndlərdə, şəhərlərdə indi yeni həyatın çiçəkləndiyinə şahidlik edirik. Bu, sanki eyni ritmlə, eyni ruhla davam edən bir yürüşdür. Bu irəliləyişdə çiyinlərimizdə silah yoxdur, lakin əllərimizdə qələm, çantamızda layihə sənədləri var. O vaxt tanklar gedirdi yollardan, döyüş avtomobilləri irəliləyirdi, torpaq barıt qoxuyurdu. Amma indi o yollardan inşaat texnikası keçir. Barıtın yerini betonun, güllənin yerini isə ümidin səsi alıb. Yollara asfalt döşənir, elektrik xətləri çəkilir, məktəblər, xəstəxanalar, evlər inşa olunur. Bir vaxtlar dağıntılar altında qalan bu torpaqlarda hazırda uşaq səsi eşidilir, məktəb zəngləri çalınır. O vaxt bombaların düşdüyü yerlərdə bu gün gül kolları əkilir, ağaclar boy atır.

Belə bir ab-havada Prezident İlham Əliyevin Qarabağa və Şərqi Zəngəzura hər səfəri özü bir müjdədir. Hər təməlqoyma mərasimi bir sevinc, hər açılış bir bayramdır. Yeni inşa edilmiş məktəblər gələcəyin ümidi, su kəmərləri həyatın özü, yollar qayıdışın rəmzidir. O illərdə səngərlərdən gələn zəfər xəbərləri, bu gün tikinti meydanlarındakı quruculuq ritmi ilə əvəz olunub. Dəyişən yalnız hadisələrin formasıdır, lider isə dəyişməyib, yenə ön cəbhədə, yenə xalqla birlikdədir. Əvvəlcə torpaq azad olundu, indi isə o torpaq dirçəldilir. Əvvəlcə düşmən çıxarıldı, indi isə həyat gətirilir. Tarixin davamı var, o bir kitab kimi yazılır. Əvvəlində qəhrəmanlıq, ortasında quruculuq var, sonunda isə rifah, sabitlik, inkişaf olacaq. Bu kitabın müəllifi xalqdır, onun ideya rəhbəri, yol göstərən redaktoru isə böyük lider, Prezident İlham Əliyevdir.

Və budur, bu payızın da öz xəbərləri var. Yenə Prezident İlham Əliyevin azad olunmuş torpaqlara etdiyi səfərlərdən doğan bir səs ölkənin hər yanında eşidilir. O, bir neçə gün əvvəl zəfərdən sonra dəfələrlə getdiyi Füzuliyə, Xocalıya, Hadruta, Xocavəndə, Xankəndiyə növbəti səfər etdi. Təbii ki, bu gediş bölgədə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərinin davamlı olduğunu göstərir. Prezidentin səfər çərçivəsində ziyarət etdiyi Xocalı rayonunun Hadrut qəsəbəsi bir vaxt qızğın döyüşlərin baş verdiyi, qəhrəmanlıq səhifələrinin yazıldığı yaşayış məskənidir. İndi isə o döyüş səngərlərinin yerində quruculuq texnikaları işləyir. Hər tikinti sabaha ümid, hər atılan təməl gələcəyin əminliyi deməkdir.

İlham Əliyevin ayaq basdığı digər yerlər Xocavəndin Qırmızı Bazar qəsəbəsi və Sos kəndi, Xocalının Şuşakənd, Badara, Seyidbəyli kəndləri idi. Dövlətimizin başçısı bu yaşayış məskənlərində həyata keçirilmiş genişmiqyaslı abadlıq-quruculuq layihələrinin icrası ilə tanış olub. Həmin tanışlıq bərpa posesinin kağız üzərində deyil, reallıqda da nə qədər sistemli və məqsədyönlü şəkildə aparıldığını göstərmiş oldu. Qeyd edək ki, kəndlərdə salınan yeni infrastrukturlar, tikilən sosial obyektlər, çəkilən yollar həm də bir xalqın torpağına necə sahib çıxdığının, səbir və zəhmətlə gələcəyə doğru addımladığının sübutudur. Yenilənən küçələr, təmir olunan binalar bu torpaqlara qayıdışın, sülh və sabitlik içində yaşamaq əzminin rəmzidir. Bunlar sadəcə texniki göstəricilər deyil, bir millətin yenidən doğuluş tarixidir.

Dövlət başçısı ənənəsinə sadiq qalaraq Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin də təməlini qoyub. Bu, sadəcə bir kəndin yox, bir həyatın, bir gələcəyin bünövrəsidir. İllərlə viran qalmış kənd yenidən insan nəfəsi, uşaqların gülüşü, ailələrin səsi üçün hazırlanır. Burada Qaraxanbəyli və Merdinli kəndlərinin sakinləri yerləşdiriləcək. İki mərhələdə icra olunacaq kənd müasir infrastrukturla, ağıllı yanaşmalarla salınacaq yeni bir yaşayış məskəni olacaq.

Prezident İlham Əliyevin Xocalı rayonunun Daşbulaq kəndində salınmış 13 hektar sahəni əhatə edən tut bağına baş çəkməsi onu göstərdi ki, təkcə şəhərlər, yollar, məktəblər deyil, kənd təsərrüfatı da Qarabağın dirçəliş planında mühüm yer tutur. Tut bağı torpağın yenidən bərəkət tapmasının, əmək və zəhmətə dayanan yeni həyatın başlanğıcıdır. Bu bağda ağaclarla bərabər ümidlər də boy atır. Uzun illər işğal altında susan torpaq indi məhsul verməyə, xalqına xidmət etməyə hazırlaşır. Bu, Daşbulaq kəndinin gələcəyinə, kəndlinin dolanışığına yönəlmiş real və davamlı addımlardan biridir.

Xocavənd rayonunun Hadrut qəsəbəsində inşa olunmuş yeni məscidin açılışında iştirak edən Prezident həm dini-mənəvi dəyərlərə verilən önəmi nümayiş etdirib, həm də bölgənin dirçəlişinin hərtərəfli xarakter daşıdığını göstərib. Təbii ki, məscidin açılışı əlamətdar hadisə olmaqla yanaşı, torpaqlara mənəvi qayıdışın da rəmzidir. Bu hadisəyə təkcə bir dini ibadət yerinin istifadəyə verilməsi kimi baxmaq doğru olmaz. Müqəddəs məkan illərlə susdurulmuş mənəviyyatın və ruhun dirçəlişidir. Minarələri ucalmış məsciddə azan səsi uzun fasilədən sonra yenidən eşidilir. Dərin məna daşıyan bu addım Qarabağda inancın, dəyərlərin və kimliyin bərpa olunduğunun əks-sədasıdır.

Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak etdikdən sonra Prezident Xocavənd rayonunun Qırmızı Bazar, Hadrut qəsəbələrinin, Sos kəndinin, eləcə də Xocalının Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndinin sakinləri ilə görüşüb. Bu görüş dövlət başçısının yalnız infrastruktur layihələrinə deyil, eyni zamanda insanların həyatına, onların rifahına, gündəlik problemlərinə göstərdiyi diqqətin bariz nümunəsidir. Xalqın həyatına, ümidlərinə, gələcəyinə verdiyi dəyəri ürəkdən ifadə edən Prezident İlham Əliyev deyib: "Son beş ilin tarixi Zəfər tarixidir, şanlı tariximizdir və şadam ki, siz artıq öz doğma dədə-baba torpağınıza gəlmisiniz, yerləşmisiniz. Sizin üçün burada şərait yaradılıb, evlər tikilib, təmir edilib. Bütün şərait var - su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar. Ən önəmlisi bura doğma Qarabağ diyarıdır. Gözəl mənzərəli yerlərdir, hər tərəf dağ, meşə, bulaq, su da boldur. Yəni burada, sadəcə olaraq, rahat yaşamaq, qurub-yaratmaq, uşaqları böyütmək, onlara yaxşı tərbiyə vermək üçün bütün şərait var. Artıq Azərbaycan xalqı bundan sonra sülh içində yaşayacaq".

Prezidentin bu səfəri bir daha sübut etdi ki, Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın sabahıdır. Bura təkcə qayıdış yox, həm də yüksəliş bölgə, bura yaddaş və ümid yeridir. Və bu ümid artıq real layihələrdə, göz önündə olan inkişafda öz əksini tapır. Burada təməli qoyulan kəndlər, istifadəyə verilən sosial obyektlər və infrastruktur layihələri deməyə əsas verir ki, bölgəyə yalnız "azad olunmuş ərazi" kimi yox, gələcəyin inkişaf mərkəzi kimi baxmaq lazımdır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# İşğaldan azad edilmiş ərazilərimizdə yeni həyat başlayıb

*"İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizdən sonra əsas hədəf 30 il işğal altında qalan, ermənilər tərəfindən tamamilə dağıdılıb yerlə yeksan edilən ərazilərimizin yenidən qurulması və bərpasıdır. Azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa-quruculuq işləri keçmiş məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmasına hədəflənib. Böyük qayıdış proqramının birinci mərhələsi üçün əsas hədəf 140 min keçmiş məcburi köçkünün qayıdışının təmin edilməsidir. Qısa zamanda görülən genişmiqyaslı bərpa-quruculuq işlərinin fonunda soydaşlarımızın qayıdış ünvanlarının sayında artım hər birimizi qürurlandırır. Prezident İlham Əliyevin mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzura səfərləri çərçivəsində bu torpaqlara qayıdan sakinlərlə görüşləri qürurverici məqamlardandır. Artıq Qarabağımız və Şərqi Zəngəzurumuz dirçəlir, bu torpaqlarda yeni həyat başlayır. Tarixi Zəfərimizdən dərhal sonra başlanan bərpa-quruculuq işləri, icra edilən "ağıllı şəhər" və "ağıllı kənd" layihəsi çərçivəsində ilk olaraq sakinlərinə qovuşan Zəngilanın Ağalı kəndindən başlayan köç prosesi hazırda davamlılığı ilə diqqətdədir. Prezident hər bir müsahibəsində, çıxışında, beynəlxalq əhəmiyyətli tədbirlərdə daim diqqəti Böyük qayıdış proqramına əsasən görülən işlərə və soydaşlarımızın mərhələ-mərhələ bu torpaqlara köçməsinə yönəldir. Birinci mərhələdə 8 şəhərin və 100 kəndin yenidən qurulması əsas hədəf kimi qarşıya qoyulub. Artıq bu məqsədin reallığa çevrildiyi göz qabağındadır. Belə ki, sakinlərinə qovuşan Laçın, Füzuli, Xocalı, Şuşa, Cəbrayıl, Kəlbəcər şəhərləri ilə yanaşı, xeyli sayda kəndlərimiz və qəsəbələrimiz də bərpa edilib. Dövlətimizin başçısının bu günlərdə Füzuli, Xocavənd, Xocalı rayonlarına və Xankəndi şəhərinə səfəri çərçivəsində Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin, həmçinin Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşü də bunun təsdiqidir".*



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Malik Həsənov bildirib.

Deputat tarixi Zəfərimizin növbəti zəfərlərə yol açmasında bəhs edərək vurğulayıb ki, 2023-cü il sentyabrın 19-20-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun həyata keçirdiyi lokal antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpası ilə Xocalı, Xocavənd, Xankəndi, Ağdərə azad edildi: "İşğaldan azad edilmiş ərazilərimizə budəfəki səfəri zamanı dövlətimizin başçısı Xocavənd rayonunun Hadrut qəsəbəsində oldu, həmçinin qəsəbədə inşa olunmuş məscidin açılışında iştirak etdi. Bu məscidin təməli Prezident İlham Əliyev tərəfindən 2021-ci ilin oktyabrında qoyulub. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra həmin ərazilərimizdə dini-tarixi abidələrin əvvəlki görünüşünə uyğun bərpası, həmçinin yeni məscidlərin inşası istiqamətində ardıcıl işlər görülür. Dövlətimizin başçısı Xocavənd rayonunun Sos kəndində də oldu. Bu kəndə indiyədək 10 ailə qayıdıb. Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində, Xocalı rayonunun Şuşakənd, Seyidbəyli, Daşbulaq, Badara kəndlərində olan Prezident İlham Əliyev sakinlərlə görüşdü. Səfər çərçivəsində dövlətimizin başçısı Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak etdi. Prezidentin sakinlər ilə görüşü tarixi Zəfərimizə, suverenliyimizin tam bərpasına gedən yolun, azad edilmiş torpaqlarda görülən işlərin təqdimatı oldu".

Malik Həsənov qeyd edib ki, dövlətimizin başçısı tarixi günlər yaşadığımızı böyük qürur hissi ilə vurğuladı. "Bu gün biz bu gözəl Qarabağ diyarında yığışmışıq" söyləyərək onu da əlavə etdi ki, bunun əsas səbəbi xalqımızın birliyidir və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə almasıdır. Həmin görüşdə Prezidentin söylədiyi bu fikirləri xatırlamaq da yerinə düşər: "Biz bütün dünyaya sübut etmişik ki, güclü xalqıq, iradəli xalqıq, döyüş meydanında da qələbə qazanmışıq, sülhə də hər zaman hazır idik. Amma sülh ədalətli sülh olmalı idi, beynəlxalq hüquq və tarixi ədalət üzərində sülh olmalı idi. Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi. 2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik. Bu gün bütün dünya Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıyır".

Deputat dövlətimizin başçısının hər bir çıxışının mühüm çağırışlarla, hədəflərlə zəngin olduğunu xüsusi vurğulayıb: "Prezident İlham Əliyevin sözügedən görüşləri bu baxımdan da diqqətdə oldu. Prezident bildirdi ki, bu gün haqlı olduğumuzu bir daha burada sübut edirik. Onlar şəhər və kəndlərimizi yerlə yeksan etmişdilər, biz isə qurub-yaradırıq. Bütün Qarabağ, bütün Şərqi Zəngəzur tikinti meydançasıdır. Qısa müddət ərzində bu gözəl evlərin bərpası, tikintisi, bütün infrastrukturun yaradılması gücümüzü, niyyətimizi göstərir. Əsas odur ki, bütün siyasi addımlarımızın mərkəzində Azərbaycan vətəndaşı dayanır".

# Sos kəndində ilin sonunadək daha 75 ev istismara hazır olacaq

2023-cü ildə Silahlı Qüvvələrimizin uğurla həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatı nəticəsində Azərbaycanın nəzarətinə qovuşan Sos kəndində də həyat yenidən canlanır, kənd sürətlə bərpa olunur.




Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin mətbuat katibi Leyla Sarabi AZƏRTAC-a müsahibəsində bildirib ki, kənddə mövcud elektrik və qaz xətləri, subartezian quyuları bərpa olunub, 2 transformator quraşdırılıb, sayğaclaşdırma prosesinə başlanılıb, 3 su anbarı təmir edilib, təqribən 5 kilometr uzunluğunda təbii qaz xətti çəkilib. Sos kəndində 259 mövcud fərdi evin 70-i yararsız, 189-u isə qismən yararlıdır. Hazırda 10 ev istismara hazırdır. İlin sonunadək daha 75 ev istismara hazır olacaq. 2026-cı ildə isə 104 evin bərpası nəzərdə tutulur. İndiyədək 10 ailə olmaqla 46 nəfər kəndə qayıdıb.



# Xocalıya növbəti dəfə infotur təşkil edilib




Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə Xocalı şəhərinə növbəti infotur təşkil olunub.

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, infoturda "Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planı"nın icrası çərçivəsində gəlirgətirən fəaliyyətlərə cəlb olunmuş bir qrup keçmiş məcburi köçkün iştirak edib. Onlar şəhərlə tanış olub, burada aparılan bərpa-quruculuq işləri, yaradılan məşğulluq imkanları barədə məlumatlandırılıblar.

Qeyd edilib ki, Prezident İlham Əliyevin tapşırıqlarına və dövlət proqramına əsasən, şəhərdə genişmiqyaslı yenidənqurma tədbirləri həyata keçirilir, infrastruktur bərpa olunur, burda işləyən və yaşayan insanlar üçün zəruri şərait yaradılır.

İnfotur iştirakçıları Xocalı şəhərində və Ballıca kəndində olublar, doğma yurda qayıdan ailələr üçün yaradılan şəraitlə yaxından tanış olublar. Keçmiş məcburi köçkünlər infoturun çox faydalı və maarifləndirici olduğunu qeyd ediblər. Bildirilib ki, belə infoturlar Böyük qayıdışın gedişi, bölgədə daimi məskunlaşma və iqtisadi fəaliyyətə inteqrasiya prosesi ilə yaxından tanış olmaq, gələcək üçün planlar qurmaq baxımından böyük əhəmiyyət kəsb edir.

Qeyd edək ki, işğaldan azad edilmiş digər ərazilərə də "Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planı" çərçivəsində infoturlar keçiriləcək.



# Azərbaycanın xarici siyasətinin uğurları

*Türkiyənin hakim partiyasının sədr müavini:*

## "Cənubi Qafqaz çox mühüm sülh və inkişaf layihəsini həyata keçirməyə hazırlaşır"



"Şuşa Bəyannaməsində öz əksini tapmış ciddi siyasi iradə Türkiyənin Azərbaycanla dövlətlərarası münasibətlərin gələcək inkişafı ilə bağlı baxışını formalaşdırır. Zəngəzur dəhlizi Azərbaycan və bütün türk dünyası ilə gələcək yaxınlaşma yolunda mühüm addımdır".

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AKP) sədrinin müavini, Türk Dövlətləri ilə Əlaqələr Baş İdarəsinin rəhbəri Kürşad Zorlu jurnalistlərə bildirib.

Onun sözlərinə görə, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında marşrut Cənubi Qafqaz və Şərqi Anadolunun mühüm iqtisadi potensialını üzə çıxarmağa imkan verəcək.

Siyasətçi Zəngəzur dəhlizinin işə salınmasının Türkiyənin şərqində, Azərbaycanla həmsərhəd olan İğdır vilayətinin də inkişafına təkan verəcəyinə əminliyini ifadə edib.

Zəngəzur dəhlizini "Türk marşrutu" adlandıran AKP sədrinin müavini Türkiyə Cümhuriyyətinin qurucusu və ilk Prezidenti Mustafa Kamal Atatürkün Naxçıvana və bütövlükdə Azərbaycana göstərdiyi diqqəti xatırladıb.

"Bu gün Cənubi Qafqaz Naxçıvan və İğdırdan keçəcək çox mühüm sülh və inkişaf layihəsini həyata keçirməyə hazırlaşır", - deyə K.Zorlu bildirib.

*Türk ekspert Hüsaməddin İNAÇ:*

## "Qafqaz İslam Ordusunun qələbəsi Azərbaycan-Türkiyə qardaşlığının təməlini qoyub"

"İnsanların tarixində olduğu kimi, dövlətlərin tarixində də mühüm dönüş nöqtələri vardır. Dövlətləri və millətləri bir-birinə yaxınlaşdıran ən önəmli amil çətin günlərdə birlikdə hərəkət edə bilməsidir. Qafqaz İslam Ordusunun 1918-ci ildə Bakının azad edilməsindəki rolu Azərbaycan-Türkiyə qardaşlığının müasir dövrdə ilk parlaq nümunəsi oldu".



Bu fikirləri AZƏRTAC-a məxsusi açıqlamasında türk ekspert Hüsaməddin İnaç bildirib.

Onun sözlərinə görə, Ənvər Paşa və Nuru Paşanın rəhbərliyi ilə həyata keçirilən həmin əməliyyat yalnız Bakının azadlığı deyil, həm də Azərbaycan dövlətçiliyinin bərpasında həlledici mərhələ idi. "Təəssüf ki, Sovet İttifaqı dövründə Azərbaycan-Türkiyə münasibətləri formal müstəviyə enmişdi. Lakin qəlblərimizdə birlik və qardaşlıq ruhu hər zaman yaşayırdı", - deyə H.İnaç əlavə edib.

Ekspert qeyd edib ki, Azərbaycanın müstəqilliyini bərpa etməsi nəticəsində Türkiyə ilə münasibətləri yeni mərhələyə qədəm qoyub: "1990-cı illərin əvvəllərində Ermənistanın işğalçılıq siyasəti və Xocalı soyqırımı baş verdiyi dövrdə Türkiyə daxilində çətinliklər yaşayırdı və dəstək imkanları məhdud idi. Lakin 2000-ci illərdən etibarən hərbi əməkdaşlığın güclənməsi, birgə təlimlərin keçirilməsi və digər sahələrdə əməkdaşlığın genişlənməsi münasibətləri daha da möhkəmləndirdi".

2020-ci ildə 44 günlük Vətən müharibəsinin region üçün tarixi dönüş nöqtəsi olduğunu diqqətə çatdıran Hüsaməddin İnaç əlavə edib: "Bu müharibə təkcə Azərbaycan-Türkiyə münasibətlərini deyil, bütövlükdə türk dünyasının birliyini gücləndirdi. Türkiyə və Azərbaycanın sinerjisi nəticəsində yalnız Ermənistan deyil, həm də onun arxasında dayanan güclər geri çəkilməyə məcbur oldu. Bu, türk dünyasının birlikdə nələrə qadir olduğunu göstərdi.

Bu gün Türkiyə və Azərbaycan türk dövlətlərinin inteqrasiya prosesində nüvəni təşkil edir. Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan kimi ölkələrin də bu prosesə qoşulması ilə geniş bir əməkdaşlıq modeli formalaşır. Bunun əsasını isə Azərbaycanın Qarabağ Zəfəri qoyub".

Türk ekspert sonda bildirib: "Bizim üçün şəhidlik anlayışı ən ali dəyərlərdən biridir. Necə ki, Türkiyəni Vətənimiz kimi görürüksə, Azərbaycanı da öz Vətənimiz bilirik. Hər iki dövlət uğrunda canını fəda etmiş şəhidlərimiz bu qardaşlığın ən möhkəm dayağıdır. Bakının işğaldan azad edilməsinin 107-ci ildönümünü təbrik edir, müstəqilliyimizin və qardaşlığımızın daimiliyini arzulayıram".

*"Hürriyet" qəzeti:*

## Bakıda keçirilən "Sonsuz qardaşlıq - IV" təlimi regionda sülhün təmin edilməsinə töhfədir

Türkiyənin aparıcı mətbu orqanlarından biri olan "Hürriyet" qəzeti Bakıda təşkil olunan "Sonsuz qardaşlıq - IV" çoxmillətli birgə xüsusi təyinatlı qüvvələr təlimini mövzusuna geniş yer ayırıb.




AZƏRTAC xəbər verir ki, nəşr oxuculara Azərbaycan, Türkiyə, Qazaxıstan, Qətər, Özbəkistan və Pakistanın xüsusi təyinatlı qüvvələri arasında qarşılıqlı fəaliyyət və təcrübə mübadiləsinin təkmilləşdirilməsi üçün keçirilən təlimin əhəmiyyətindən bəhs edib.

Yazıda Belarus, İtaliya və Macarıstan nümayəndə heyətlərinin müşahidə etdiyi "Sonsuz qardaşlıq - IV" təliminin gedişi ilə bağlı Azərbaycan Müdafiə Nazirliyinin hesabatından parçalar təqdim olunur. Həmçinin Azərbaycanda keçirilən təlim çərçivəsində "Yüksəksəviyyəli Müşahidəçi Günü" haqqında da məlumat verilir.

Materialda diqqət təlimin beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsinə və regionda sülhün qorunmasına verdiyi töhfəyə yönəldilib.

## Qlobal Cənub dövlətləri İpək yolu ölkələri xalqlarının yaxınlaşması üçün həllər hazırlamalıdır

"Qlobal Cənub ölkələri "Bir kəmər, bir yol"un birgə tikintisini və İpək yolu ruhunun inkişafını təmin edir. Biz İpək yolu boyunca yerləşən ölkələrin xalqlarının rifahı naminə ümumi nailiyyətlərimizi bir araya gətirmək üçün həll yolları işləyib hazırlamalıyıq".

AZƏRTAC xəbər verir ki, bu sözləri Çinin Yunnan əyalətinin Kunmin şəhərində keçirilən "Bir kəmər, bir yol-2025" Media Əməkdaşlıq Forumu çərçivəsində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin təbliğat şöbəsinin müdir müavini Van Qan deyib.

Onun sözlərinə görə, "Bir kəmər, bir yol" layihələrinin işıqlandırılmasında platformaları daha səmərəli etmək, mütəmadi təmaslar qurmaq və media əməkdaşlığını həyata keçirmək lazımdır. Yeni İpək yolunun inkişafı və tikintisində də yeni keyfiyyətə nail olmaq lazımdır.

"Müasir internet məkanı yeni çağırışlarla dolub, xüsusən də süni intellekt meydana çıxıb. Ümumdünya şəbəkəsinin dağıdıcı və aqressiv tendensiyalara deyil, ən yaxşılara, xüsusən də "Bir kəmər, bir yol" ideyasının yayılmasına xidmət etməsinə nail olmaq lazımdır", - deyə o vurğulayıb.

*Ekspert Ayjan BEYSİYEVA:*

## "Azərbaycan Asiya ilə Avropa arasında yükdaşımaların sürətlənməsi və şaxələndirilməsi zəncirinin həlledici bəndinə çevrilir "

**Dəyişən geosiyasət və dayanıqlı logistika həllərinə artan tələbat kontekstində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TITR, Orta dəhliz) strateji əhəmiyyət kəsb edir. Azərbaycan əsas tranzit qovşağı kimi infrastrukturun və rəqəmsal həllərin inkişafına, Mərkəzi Asiya ilə Avropa arasında əlaqəni gücləndirməyə fəal şəkildə sərmayə qoyur. Eyni zamanda digər məsələlərlə yanaşı, Logistika və Nəqliyyatda Qadınlar ("WiLAT") təşəbbüsü vasitəsilə həyata keçirilən qadın liderliyi bu sahədə effektiv və inklüziv logistika strategiyalarının formalaşmasında mühüm rol oynayır. Nəqliyyat və logistika üzrə qazaxıstanlı ekspert, "WiLAT" Mərkəzi Asiya təşkilatının sədr müavini Ayjan Beysiyeva AZƏRTAC-a müsahibəsində multimodal qovşaqların və tranzitin rəqəmsallaşdırılmasının inkişaf perspektivləri, o cümlədən regionda logistikanın idarə olunmasında gender balansının təmin edilməsinin vacibliyindən danışıb.**



*- Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafında Azərbaycanın rolunu necə qiymətləndirirsiniz?*

- Azərbaycan Orta dəhlizin inkişafında əsas rol oynayır. Ölkə Xəzər dənizini Gürcüstanla və daha sonra Avropa bazarları ilə birləşdirən strateji tranzit qovşağı qismində çıxış edir. Ələt limanına yatırılan böyük investisiyalar, dəmir yolu şəbəkəsinin modernləşdirilməsi və müasir logistika mərkəzlərinin yaradılması sayəsində Azərbaycan Asiya ilə Avropa arasında yükdaşımaların sürətləndirilməsi və şaxələndirilməsi zəncirində həlledici bəndə çevrilir. Marşrutun davamlılığı yaxşı əlaqələndirilmiş bərə keçidləri, effektiv multimodal logistika və beynəlxalq tərəfdaşlarla fəal əməkdaşlıq vasitəsilə təmin edilir.

*- Xəzəryanı inteqrasiya, xüsusən Qazaxıstan ilə Azərbaycan arasında Mərkəzi Asiyada təchizat zəncirlərinin davamlılığı üçün nə dərəcədə vacibdir?*

- Xəzəryanı ölkələrin inteqrasiyası regionda davamlı və çevik təchizat zəncirlərinin qurulmasında əsas elementdir. Qazaxıstan ilə Azərbaycan arasında əməkdaşlıq xüsusilə dəniz nəqliyyatı baxımından "Şimal" və "Cənub" marşrutlarına real alternativ təklif edən etibarlı nəqliyyat oxunu formalaşdırır. Xəzər dənizi vasitəsilə birbaşa əlaqə logistika riskləri və çatdırılma müddətlərini əhəmiyyətli dərəcədə azaltmağa imkan verir, üçüncü ölkələrdən asılılığı azaldır və Mərkəzi Asiya ixracatçılarının rəqabət qabiliyyətini artırır. Bundan əlavə, bu marşrut hətta fors-major və ya qlobal təlatümlər zamanı malların hərəkətini təmin etməyə qadir olan mühüm ehtiyat dəhlizi təmin edir.

*- Sizcə, Aktau və Ələt limanları vahid logistika klasteri çərçivəsində necə səmərəli qarşılıqlı əlaqə qura bilər?*

- Aktau və Ələt limanlarının vahid logistika klasteri çərçivəsində səmərəli qarşılıqlı əlaqəsi Trans-Xəzər daşımalarının ümumi səmərəliliyinin artırılması üçün sadəcə fürsət deyil, həm də zəruri şərtdir. Bu kontekstdə praktiki addımlara bərə və dəmir yolu cədvəllərinin sinxronlaşdırılması daxildir ki, həmin amil də dayanma müddətini minimuma endirəcək və yüklərin daşınmasını sürətləndirəcək. Müştərilər üçün xidmətləri daha şəffaf və rəqabətli edəcək vahid tarif və anbar təkliflərinin tətbiqi də vacibdir.

"Port Community System" kimi müasir sistemlər vasitəsilə real vaxt rejimində məlumat mübadiləsi bütün əməliyyatların koordinasiyasını və şəffaflığını təmin edəcəkdir. Birgə terminal idarəetməsi və ümumi sifariş sisteminin yaradılması yükləməni optimallaşdıracaq və xidmət keyfiyyətini artıracaq. Keyfiyyət standartları, gömrük prosedurlarının unifikasiyası, malların sürətli və rahat ötürülməsini təmin edəcək vahid multimodal terminalların yaradılması da az əhəmiyyət kəsb etmir. Kurık limanı da regionda birləşdirici zənciri gücləndirəcək və bu prosesdə əsas rol oynaya bilər.

*- Qazaxıstan, Azərbaycan və Gürcüstanın qovşağında multimodal habların inkişaf perspektivləri nə dərəcədə realdır?*

- Qazaxıstan, Azərbaycan və Gürcüstanın qovşağında multimodal habların yaradılması perspektivləri kifayət qədər real görünür, bir şərtlə ki, uzunmüddətli investisiyalar və ölkələr arasında səmərəli koordinasiya olsun. Trans-Xəzər dəhlizi - Qazaxıstandan (Aktau limanı), Azərbaycandan (Ələt, Bakı) Gürcüstana (Batumi, Poti) qədər dayanıqlı və yüksəksəmərəli multimodal nəqliyyat habına çevrilmək üçün bütün zəruri ilkin şərtlərə malikdir.

Bu potensialın reallaşdırılması üçün normativ-hüquqi bazaların unifikasiyasının təmin edilməsi, özəl investisiyaların cəlbinin stimullaşdırılması və terminallar, logistika və rəqəmsal inteqrasiya sahəsində dövlət-özəl tərəfdaşlıq layihələrinin fəal şəkildə inkişaf etdirilməsi vacibdir. Bu cür addımlar şəffaf, sürətli və rəqabətədavamlı nəqliyyat sistemi yaradacaq ki, bu da regionun inkişafının əsl lokomotivinə çevrilə bilər.

*- Qazaxıstan və Mərkəzi Asiyadan hansı ixrac malları sərfəli şəkildə emal oluna və ya əlavə dəyərlə Azərbaycan vasitəsilə nəql edilə bilər?*

- Azərbaycan Qazaxıstan və Mərkəzi Asiyadan bir sıra əsas ixrac məhsulları üçün əlavə dəyər yaratmaqda mühüm rol oynaya bilər. İlk növbədə bu, taxılla bağlıdır - üyüdülmə və qablaşdırma imkanlarının inkişafı ilə hazır məhsul istehsal etmək mümkündür ki, bu da onların dünya bazarında rəqabət qabiliyyətini artıracaq. Eynilə, bitki yağlarının, ət və ərzaq məhsullarının emalı da ixrac marjasını artıracaq. Bundan əlavə, mineral konsentratların və metalların emalı sahəsində əhəmiyyətli potensial var - təmizləmə, yığılma və ilkin emal kimi əməliyyatlar xammalın dəyərini əhəmiyyətli dərəcədə artıra bilər. Azərbaycanda gübrə və kimyəvi məhsullar da emal oluna və qablaşdırıla bilər.

Burada hazır toxuculuq məhsullarına çevrilə bilən pambıq kimi tekstil xammalı xüsusi diqqət çəkir. Bundan əlavə, yüklərin konsolidasiyası, etiketlənməsi, yenidən qablaşdırılması və komponentlərin asan yığılması əlavə dəyər tranzitinin mühüm sahəsinə çevrilir. Bütün bunlar yeni biznes imkanları yaradır və regional təchizat zəncirlərini gücləndirir.

*- Sizcə, Orta dəhliz çərçivəsində tranzitin asanlaşdırılmasına hansı rəqəmsal alətlər daha effektiv təsir göstərir?*

- Azərbaycan və Mərkəzi Asiya ölkələri vasitəsilə tranzit proseslərinin rəqəmsallaşdırılması bu marşrut üzrə səmərəliliyin və şəffaflığın artırılmasında əsas amildir. Belə ki, eTIR və eCMR kimi alətlər sənəd dövriyyəsini avtomatlaşdırmağa və sərhədlərdə gecikmələri minimuma endirməyə, inzibati maneələri azaltmağa imkan verir. Təchizat zəncirinin bütün iştirakçıları dövlət qurumları ilə vahid rəqəmsal platforma vasitəsilə qarşılıqlı əlaqədə olduqda, həmçinin "vahid pəncərə" prinsipinin həyata keçirilməsi eyni dərəcədə vacibdir. Bu, gömrük rəsmiləşdirilməsi prosedurlarını əhəmiyyətli dərəcədə sürətləndirir, logistikanı asanlaşdırır və riskləri azaldır.

*- Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında rəqəmsal platformaların inteqrasiyası potensialını necə qiymətləndirirsiniz?*

- Rəqəmsal platformaların region ölkələri arasında, xüsusən də Mərkəzi Asiya ilə Azərbaycan arasında inteqrasiyası böyük potensiala malikdir. Yük axınlarını izləmək, əlaqələndirmək və təhlil etmək üçün qarşılıqlı fəaliyyət göstərən sistemlər bütün logistika zəncirinin şəffaf monitorinqi, proqnozlaşdırılması və optimallaşdırılması üçün əsas ola bilər. Bu cür həllər nəinki marşrutun dayanıqlılığını artıracaq, həm də özəl sektor üçün məlumatlara çıxışı sadələşdirəcək, xidməti təkmilləşdirəcək və xərcləri azaldacaq.

*- Sizcə, qadın liderlər iki ölkə arasında logistika strategiyalarının formalaşmasında hansı rol oynamalıdır və "Women in Logistics and Transport" təşəbbüsünün bu sahədə əməkdaşlıq planları varmı?*

- Qadın liderlər Qazaxıstan ilə Azərbaycan arasında logistika strategiyalarının formalaşmasında əsas və sistemli rola malik olmalıdırlar. Onların layihələrin idarə edilməsində, multimodal qovşaqların inkişafında və logistikanın rəqəmsal transformasiyasında fəal iştirakı təkcə inklüzivliyi gücləndirmir, həm də davamlılıq, çeviklik və əməkdaşlığa əsaslanan yeni idarəetmə yanaşmaları gətirir. Logistika üzrə qadın liderlər maraqlı tərəflər arasında effektiv ünsiyyət qura bilirlər ki, bu da transmilli layihələrdə xüsusilə vacibdir. Onların töhfəsi təchizat zəncirlərini xarici risklərə daha uyğun və davamlı edir.

"WiLAT"a gəlincə, təşkilat artıq Qazaxıstan, Azərbaycan və regionun digər ölkələrindən olan qadın ekspertlər arasında əməkdaşlığın inkişafına yönəlmiş təşəbbüsləri nəzərdən keçirir. Əsas diqqət təhsil proqramları, təcrübə mübadiləsi, birgə tədqiqat layihələri və ekspert platformaları, habelə dövlət sektoru ilə dialoq vasitəsilə logistika gündəliyinin formalaşmasında iştirakdır.



*- "WiLAT" regionda rəqəmsallaşmanın və logistikanın inklüziv inkişafının təşviqində hansı rolu oynayır?*

- Bu kontekstdə "WiLAT"ın təşəbbüsləri təkcə rəqəmsallaşmanın təşviqində deyil, həm də regionda logistikanın inklüziv inkişafının təmin edilməsində mühüm rol oynayır. Təşkilat qadın logistika mütəxəssisləri üçün "Senior-Junior" mentor proqramını fəal şəkildə inkişaf etdirir. Bu təşəbbüs karyera yollarının qurulması, layihənin idarə edilməsi, danışıqların aparılması və peşəkar şəbəkələrin inkişafı kimi sahələri əhatə edir. Bu proqramların tərəfdaşı qismində Nəqliyyat və Logistika üzrə Kral İnstitutu (CILT Central Asia) çıxış edir.

"WiLAT", həmçinin eTIR, eCMR, nəqliyyat idarəetmə sistemləri (TMS), yaşıl logistika və beynəlxalq normativlərə uyğunluq kimi əsas rəqəmsal alətlər üzrə təhsil kursları keçirir. Bu, müasir logistikanın çətinlikləri ilə üzləşməyə hazır olan yeni qadın ekspertlər nəslinin formalaşmasına kömək edir.

*- "WiLAT" regionun qadın liderləri arasında təcrübə mübadiləsinin və qarşılıqlı əlaqələrin hansı formatlarını dəstəkləyir?*

- Prioritetlərdən biri şəbəkələrin inkişafı və təcrübə mübadiləsidir. Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan, Azərbaycan və Gürcüstandan olan qadın liderlərin iştirakı ilə mütəmadi seminarlar və "dəyirmi masa"lar qabaqcıl təcrübələrin müzakirəsi üçün məkan yaradır, onlayn platformalar isə Orta dəhliz layihəsi çərçivəsində pilot layihələrin keyslərinin və nəticələrinin paylaşılmasına imkan verir. Bundan əlavə, B2B və B2G formatlarında səyyar tanışlıq turları və görüşlər keçirilir ki, bu da ölkələr arasında dialoqu gücləndirir.

"WiLAT" logistika sahəsində qadın sahibkarlığının dəstəklənməsinə xüsusi diqqət yetirir. İnkubasiya və sürətləndirmə proqramları multimodal xidmətlər, qablaşdırma və əlavə dəyər əməliyyatları ilə bağlı layihələrə xüsusi diqqət ayırır. Eyni zamanda qadın sahibkarların dəstəklənməsinə yönəlmiş xüsusi qrant və kredit xətlərinin işə salınması üçün banklar və investisiya fondları ilə tərəfdaşlıq əlaqələri inkişaf etdirilir.

*- Qadınların Orta dəhliz layihəsi çərçivəsində strateji logistika idarəçiliyinə cəlb edilməsi nə üçün mühümdür?*

- Qadınlar logistika klasterlərinin strateji idarə olunmasında fəal iştirak etməlidirlər. "WiLAT" dayanıqlı inkişafın gender aspektləri mütləq nəzərə alınmaqla, onların Orta dəhlizinin inkişafı üzrə işçi qruplarında, eləcə də "yaşıl nəqliyyat" dəhlizləri və rəqəmsal inteqrasiya standartlarının hazırlanmasında iştirakını təşviq edir.

Pilot layihələrin bir hissəsi olaraq, təşkilat qadınların Ələt və Aktau limanlarında, o cümlədən anbar logistikası, konteynerlərin daşınması və rəqəmsal dispetçerin idarə edilməsində əməliyyat rollarına cəlb edilməsinə təşəbbüs göstərir. Belə layihələrin effektivliyinə xüsusi meyarlardan - layihənin idarə edilməsində qadınların payı, təlim keçənlərin sayı, qadın sahibkarların sayının artması və cəlb edilən investisiyaların həcmindən istifadə etməklə nəzarət edilir.

Biz azərbaycanlı tərəfdaşları açıq əməkdaşlığa dəvət edirik. Birgə seminarlar, mentor mübadiləsi və pilot təşəbbüslər qadın liderlərin strateji proseslərə inteqrasiyasını sürətləndirməklə yanaşı, həm də ümumilikdə Xəzər dənizindən keçən tranzit marşrutunun davamlılığını, şəffaflığını və rəqabət qabiliyyətini yaxşılaşdıra bilər.

# 2026-cı ilin dövlət və icmal büdcələri artımla proqnozlaşdırılır

Maliyyə Nazirliyi Azərbaycan Respublikasının 2026-cı ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlamanı ictimaiyyətə təqdim edib. Açıqlamada qeyd olunur ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin ilk səkkiz ayında ümumi daxili məhsul (ÜDM) real ifadədə 1 faiz artmış nominal ifadədə 83 milyard manat təşkil etmişdir. Adambaşına düşən ÜDM real ifadədə 0,6 faiz artaraq 8111,3 manat olmuşdur.

### Bu ilin sonuna ÜDM-in həcminin 134 milyard manatı ötməsi gözlənilir

Proqnozlara əsasən, 2026-cı ilin sonuna ÜDM-in həcminin 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in 101,7 milyard manat təşkil edəcəyi gözlənilir. 2029-cu ildə isə ÜDM-in 161,8 milyard manata, qeyri-neft-qaz ÜDM-in isə 129,5 milyard manata çatacağı proqnozlaşdırılır.

Açıqlamada bildirilir ki, 2026-cı il və növbəti üç ili əhatə edən ortamüddətli dövr üzrə büdcə siyasətinin məqsəd, istiqamət və hədəfləri bir sıra çağırışlar nəzərə alınmaqla müəyyən edilmişdir. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər və onun əsasında hazırlanan 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası, onların 2027-2030-cu illəri əhatə edən növbəti mərhələsi, eləcə də ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi əsas aktual çağırışlar hesab olunur.

2026-cı ildə büdcə gəlirləri sahəsində həyata keçiriləcək əsas istiqamətlər ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etmək məqsədi daşıyır. Bu tədbirlər çərçivəsində vergi yükünün optimallaşdırılması, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi və vergi, gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi kimi addımlar planlaşdırılır.

Dövlət büdcəsinin əsas xərc istiqamətləri isə büdcə siyasəti qarşısında dayanan çağırışlar və sosial-iqtisadi hədəflər əsas götürülməklə müəyyənləşdirilmişdir. Ümumilikdə 2026-2029-cu illərdə dövlət büdcəsi xərcləri dövlətin əsas funksiyalarının maliyyələşdirilməsinin təmin edilməsinə yönəldiləcəkdir. Ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, o cümlədən ölkə sərhədlərinin bərpası və toxunulmazlığının təmin edilməsi, ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, ərazilərin minalardan təmizlənməsi, hərbçilərin sosial təminatının və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində kompleks tədbirlərin və layihələrin icrası, iqtisadiyyata dövlət büdcəsindən birbaşa və dolayısı ilə dövlət öhdəlikləri, dövlət sifarişi, subsidiya, subvensiya və dotasiya formasında maliyyə dəstəyinin davam etdirilməsi, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, əməkhaqqı sisteminin təkmilləşdirilməsi, əməyin ödənişi, pensiyalar, müavinətlər, təqaüdlər və digər sosial ödənişlər ilə bağlı xərclərin maliyyə təminatı, dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş dövlət proqram və tədbirlərin maliyyə təminatı ortamüddətli dövrdə dövlət büdcəsinin əsas xərc istiqamətlərini təşkil edəcək.




### Qarşıya qoyulan bütün vəzifələr tam şəkildə yerinə yetiriləcək

Gəlir və xərclərə gəldikdə, 2026-cı ildə icmal büdcənin gəlirləri 44 milyard 825,3 milyon manat səviyyəsində proqnozlaşdırılmışdır ki, bu da 2025-ci ilin təsdiq olunmuş göstəricisinə nəzərən 874,7 milyon manat və ya 2 faiz artım deməkdir. İcmal büdcənin xərcləri isə növbəti ildə 48 milyard 683,1 milyon manat proqnozlaşdırılmışdır ki, bu da 2025-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 1 milyard 53.7 milyon manat və ya 2,2 faiz çoxdur.

2026-cı il üzrə icmal büdcədə 3,857.8 milyon manat büdcə kəsiri (defisit) olacağı proqnozlaşdırılır.

2026-cı ildə dövlət büdcəsinin gəlirləri 38 milyard 423 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 67 milyon manat və yaxud 0,2 faiz çox, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə 1 milyard 261,2 milyon manat və yaxud 3,4 faiz çoxdur.

Növbəti ildə dövlət büdcəsinin xərcləri 2025-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 141 milyon manat və ya 0,3 faiz artım ilə 41 milyard 548,6 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə 3 milyard 835 milyon manat və yaxud 10,2 faiz çoxdur.

2026-cı ildə dövlət büdcəsinin kəsiri 2025-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 74 milyon manat və ya 2,4 faiz çox olmaqla 3 milyard 125,6 milyon manat (ÜDM-də xüsusi çəkisi 2,3 faiz olmaqla) proqnozlaşdırılır.

2026-cı ildə xam neftin bir barelinin orta illik satış qiyməti 65 ABŞ dolları səviyyəsində götürülməsi nəzərdə tutulur.

Funksional təsnifat üzrə 2026-cı ildə ümumi dövlət xidmətləri üzrə xərclərinə 5 milyard 776,5 milyon manat (13,9 faiz), müdafiə və milli təhlükəsizlik üzrə xərclərə 8 milyard 714,8 milyon manat (21 faiz), məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq üzrə xərclərinə 3 milyard 553,6 milyon manat (8,6 faiz), təhsil xərclərinə 4 milyard 985,8 milyon manat (12 faiz), səhiyyə xərclərinə 2 milyard 52,4 milyon manat (4,9 faiz), sosial müdafiə və sosial təminat üzrə xərclərinə 4 milyard 873 milyon manat (11,7 faiz), mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə 568,6 milyon manat (1,4 faiz), mənzil və kommunal təsərrüfatı üzrə xərclərinə 298,2 milyon manat (0,7 faiz), kənd təsərrüfatı üzrə xərclərə 1 milyard 92,1 milyon manat (2,6 faiz), ətraf mühitin mühafizəsi üzrə xərclərinə 357,2 milyon manat (0,9 faiz), iqtisadi fəaliyyət xərclərinə 7 milyard 630,7 milyon manat (18,4 faiz), əsas bölmələrə aid edilməyən xidmətlər üzrə xərclərə isə 1 milyard 645,7 milyon manat (4 faiz) vəsait yönəldilməsi proqnozlaşdırılır.

Qeyd edək ki, 2025-ci ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik üzrə xərclər 8 milyard 396 milyon 297 min manat təşkil edir. 2026-cı ilin dövlət büdcəsində isə müdafiə və milli təhlükəsizlik xərclərinin bundan təxminən 318 milyon manat çox olması proqnozlaşdırılır.

2026-cı ilin icmal və dövlət büdcələrinin gəlir və xərcləri üzrə proqnozlar göstərir ki, növbəti il də dövlət büdcəsində qarşıya qoyulan bütün vəzifələr tam şəkildə yerinə yetiriləcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Ruben Vardanyan "Ermənistanın Baş naziri Nikol Paşinyanın, ATƏT-in Minsk qrupunun üzvlərinin və BQXK nümayəndələrinin dindirilməsi"ni məhkəmədən xahiş edib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 16-da davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Ardınca təqsirləndirilən Ruben Vardanyan məhkəməyə müraciət edərək bir neçə vəsatətinin olduğunu bildirib.

Əvvəlcə təqsirləndirilən şəxs məhkəməyə müraciət edərək "ittiham edildiyi cinayət işi üzrə bəzi şəxslərin - Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın, ATƏT-in Minsk qrupunun üzvlərinin, BQXK-nın Azərbaycandakı nümayəndələrinin dindirilməsini" xahiş edib.

Müdafiəçi Avraam Berman vəsatəti müdafiə etdiyini bildirib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov vəsatətlərə münasibət bildirərək qeyd ediblər ki, təqsirləndirilən şəxs tərəfindən dindirilməsi təklif olunan şəxslərin məhkəmədə baxılan ittihama aidiyyəti yoxdur. Bundan başqa, müdafiə tərəfinin iştirakı ilə məhkəmə baxışında tədqiq edilməli olan sübutların siyahısı, eləcə də sübutların tədqiq olunma ardıcıllığı artıq müəyyən edilib. Qəbul edilmiş qərara əsasən prosesin hazırkı mərhələsində ittiham tərəfinin təqdim etdiyi sübutlar tədqiq olunur. O səbəbdən dövlət ittihamını müdafiə edən prokurorlar vəsatətin baxılmamış saxlanmasını xahiş ediblər.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər vəsatətin rədd olunmasını məhkəmədən xahiş ediblər.

İşə baxan hakimlər kollegiyası yerində müşavirə edərək məhkəmə baxışında sübutların tədqiq olunma ardıcıllığı ilə bağlı qərarın qəbul olunduğunu, həmin qərar qəbul olunmazdan əvvəl müdafiə tərəfinin də mövqeyinin nəzərə alındığını vurğulayaraq, vəsatətin baxılmamış saxlandığını qeyd edib və bu vəsatətin gələcəkdə yenidən verilməsinin mümkün olduğunu təqsirləndirilən şəxsə və onun müdafiəçisinə bildirib.

Daha sonra Ruben Vardanyan digər vəsatətini məhkəməyə təqdim edərək hərbi qulluqçu olmadığını, buna görə də təqsirləndirildiyi cinayət işinə hərbi məhkəmədə baxılmasından narazı olduğunu deyib.

Təqsirləndirilən şəxsin vəkili vəsatəti müdafiə etdiyini bildirib.

Vəsatətə münasibət bildirən baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli bildirib ki, təqsirləndirilən şəxsin ittiham edildiyi cinayətlərin bəziləri hərbi cinayətlər olduğu üçün onun işinə hərbi məhkəmədə baxılır. Odur ki, dövlət ittihamını müdafiə edən prokuror vəsatətin rədd edilməsini məhkəmədən xahiş edib.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər vəsatətin rədd olunmasını məhkəmədən xahiş ediblər.

Sədrlik edən Zeynal Ağayev bildirib ki, məhkəmənin hazırlıq iclasında bu məsələyə artıq baxılıb və



həmin zaman məhkəmə aidiyyəti barədə proses tərəflərinə, o cümlədən təqsirləndirilən şəxsə və onun müdafiəçisinə ətraflı məlumat verilib. Bundan başqa, təqsirləndirilən şəxsin ittiham olunduğu bəzi cinayət əməlləri hərbi cinayət hesab edildiyi üçün Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə əsasən işə hərbi məhkəmədə baxılır. Qeyd olunanlara əsasən vəsatət rədd edilib.

Növbəti vəsatətində təqsirləndirilən Ruben Vardanyan cinayət işi üzrə özü və müdafiəçisi tərəfindən əvvəlki məhkəmə proseslərində verilmiş vəsatətlərə dair qərarlarla tanış olmaq istədiklərini və həmin qərarlardan çıxarışların onlara təqdim olunmasını xahiş edib.

Müdafiəçi vəsatətin təmin olunmasını məhkəmədən xahiş edib.

Məhkəmə iclasına sədrlik edən əvvəllər təqsirləndirilən şəxsin məhkəmə iclas protokolları, həmçinin vəsatətlərinə dair qəbul edilmiş qərarlarla tanış olması üçün şərait yaradıldığını, bundan sonra da eyni qaydada tanış olması üçün şərait yaradılacağını bildirib.

Digər vəsatətində təqsirləndirilən şəxs Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçməklə bağlı ona qarşı irəli sürülmüş ittihamla razı olmadığını bildirib. Habelə, "vaxtilə Qarabağda olmuş Rusiyanın sülhməramlı kontingentinin komandanı olmuş şəxslərin məhkəmədə dindirilməsini" xahiş edib.

Vəkil Avraam Berman təqsirləndirilən R.Vardanyanın vəsatətini müdafiə etdiyini bildirib.

Sədrlik edən Zeynal Ağayev hazırda məhkəmə baxışının davam etdiyini, təqsirləndirilən şəxsə elan olunmuş ittihamlara məhkəmə baxışının sonunda hüquqi qiymət veriləcəyini söyləyib. Bundan başqa, vaxtilə Qarabağda olmuş Rusiyanın sülhməramlı kontingentinin komandanlarının təqsirləndirilən şəxsin ittiham edildiyi cinayət işinə aidiyyətinin olmadığını bildirib. Odur ki, vəsatət baxılmamış saxlanılıb və təqsirləndirilən şəxsə, onun müdafiəçisinə bu vəsatətin gələcəkdə yenidən verilməsinin mümkünlüyü izah olunub.

Sonra Ermənistanın təcavüzkar müharibəsi və işğalçılıq siyasəti nəticəsində törədilmiş cinayət hadisələri zamanı zərər çəkənlər, habelə zərərçəkmişlərin hüquqi varisləri ifadə veriblər.

Zərərçəkmiş Azad Kərimovun hüquqi varisi - atası Zakir Kərimov ifadəsində bildirib ki, övladı Kəlbəcərdə Ermənistan silahlı qüvvələri tərəfindən törədilən genişmiqyaslı təxribat zamanı həlak olub.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Akşin Nəsibovun hüquqi varisi Vasif Nəsibov övladının Ağdərə istiqamətində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatı nəticəsində həlak olduğunu deyib.

Zərərçəkmiş Yunis Kazımovun hüquqi varisi Qasım Kazımov ifadəsində bildirib ki, övladı Kəlbəcər



istiqamətində düşmənin snayper atəşi nəticəsində həlak olub.

Zərərçəkmiş Kamran Hüseynovun hüquqi varisi - atası Namiz Hüseynov ifadəsində oğlunun Xankəndi-Şuşa yolunda düşmənin basdırdığı minanın partlaması nəticəsində həlak olduğunu deyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Elşən Xankişiyevin hüquqi varisi Aidə Xankişiyeva övladının Xocalı istiqamətində düşmənin təxribatı zamanı həlak olduğunu söyləyib.

Zərərçəkmiş Cəmil Qurbanzadənin hüquqi varisi - atası Anar Qurbanov ifadəsində qeyd edib ki, övladı Laçın istiqamətində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatı zamanı həlak olub.

Zərərçəkmiş Əli Babazadənin hüquqi varisi - Rüstəm Babayev övladının Xankəndi istiqamətində düşmənin təxribatı nəticəsində həlak olduğunu bildirib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş şəxs Toğrul Əliyevin hüquqi varisi Qızılgül Əliyeva ifadəsində övladının düşmənin törətdiyi təxribat nəticəsində Xocavənd rayonunda həlak olduğunu söyləyib.

Zərərçəkmiş şəxs İslam Dünyamalıyevin hüquqi varisi Gülşən Dünyamalıyeva ifadəsində bildirib ki, oğlu Ağdərə rayonunun Sırxavənd kəndində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatı nəticəsində həlak olub.

Zərərçəkmiş şəxs Nəzər Əzizovun hüquqi varisi - anası Cəmafət Əzizova oğlunun Kəlbəcərdə qarşı tərəfdən açılan snayper atəşi nəticəsində həlak olduğunu deyib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Zöhrab Kərimovun hüquqi varisi - atası Azad Kərimov bildirib ki, övladı Laçında düşmən təxribatı nəticəsində həlak olub.

Zərərçəkmiş Məhəmməd Məmmədovun hüquqi varisi - atası Bilal Məmmədov övladının Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin təxribatı zamanı həlak olduğunu söyləyib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Əbdülmətin İsmayılov deyib ki, Laçın rayonunda qarşı tərəfdən atılmış artilleriya mərmilərinin partlaması nəticəsində kəllə-beyin travması alıb və diz nahiyəsindən yaralanıb. Həmin vaxt Məhəmməd Hüseynov və Eltac Əhədov həlak olub, onun özündən başqa Kamal Bəhrəmov, Cavid Qurbanov, Əhəd Əsədullayev, Dilqəm Həsənov, Nicat Şükürov xəsarətlər alıblar.

Zərərçəkən Rəşad Ağayev ifadəsində bildirib ki, Ağdərə rayonunun Sırxavənd kəndi ərazisində düşmən tərəfindən atılan idarəolunan raket mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət alıb. Həmin vaxt Vüsal Rüstəmov, Elvin Əliyev, Nihad Quluzadə, Əlibəy Əlibəyov, Ağami Əlişanov, Altun Əliyev həlak olublar.

Paşa Abayev ifadəsində bildirib ki, Ağdam rayonunun Əliağalı kəndi ərazisində düşmən tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində xəsarət alıb.

Zərərçəkən Nəriman Kərimov ifadəsində bildirib ki, Xocavənd rayonu ərazisində düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində yaralanıb.

Elşən Zeynalov Ağdam rayonu ərazisində yerləşən düşmən tərəfindən atılmış artilleriya mərmisinin partlaması nəticəsində başının arxa nahiyəsindən qəlpə xəsarəti aldığını deyib.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkən Fərid Həsənov düşmənin təxribatı nəticəsində Ağdərə istiqamətində yaralandığını söyləyib.

Mirzəli Mirzəyev düşmənin açdığı atəş nəticəsində Xankəndi istiqamətində ayağından yaralandığını deyib.

Zərərçəkən Şəhriyar Zamanov ifadəsində düşmənin açdığı atəş nəticəsində Ağdərədə kəllə-beyin travması və qəlpə yarası aldığını söyləyib.

Anar Abasov ifadəsində qeyd edib ki, Ağdam rayonunun Abdal-Gülablı kəndindəki dağlıq-meşəlik ərazidə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan minaatan mərmisinin partlaması nəticəsində xəsarət alıb.

Zərərçəkən Şirxan Hacıməmmədov ifadəsində bildirib ki, Laçın rayonu ərazisində Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində yaralanıb.

Bu zaman məhkəmədə təqsirləndirilən şəxs R.Vardanyan ifadə verən zərərçəkmişlərə sual ünvanlamağa başlayıb (xatırladaq ki, təqsirləndirilən şəxs əvvəlki məhkəmə prosesləri zamanı zərərçəkmiş şəxslərə sual vermirdi).

Təqsirləndirilən şəxs R.Vardanyanın sualına cavabında Ş.Hacıməmmədov qeyd edib ki, təxribat törədən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində yaşamış və hərbi xidmət keçmiş şəxslər də olub.

Elvar Nəhmətzadə ifadəsində Ağdam rayonunun Abdal-Gülablı kəndindəki dağlıq-meşəlik ərazidə düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində xəsarət aldığını deyib.

Zərərçəkən Taleh Qurbanov ifadəsində qeyd edib ki, Xocalı rayonunun Xanabad kəndi ərazisində düşmən tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində Davud Qiyaslı və Ramin Məmmədov həlak olub, o, Mirəli Ağalarov və Pünhan Kazımov müxtəlif növ bədən xəsarətləri alıblar.

Zərərçəkən Amid Piriyev bildirib ki, Ağdam rayonu istiqamətində düşmənin atdığı artilleriya mərmisinin yaxınlığında partlaması nəticəsində yaralanıb.

Nəciməddin Ələsgərov qeyd edib ki, Ağdərə rayonunun Canyataq kəndi ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan raket mərmisinin yaxınlığında partlaması nəticəsində kəllə-beyin travması alıb.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin əməkdaşları ilə Ağdam rayonunun azad edilmiş Sarıcalı kəndində mina təmizlənməsi işlərinə cəlb olunduğunu deyən zərərçəkən Şöhrət Aslanov bildirib ki, idarə etdiyi nəqliyyat vasitəsi düşmənin basdırdığı minaya düşüb və nəticədə yaralanıb.

Zərərçəkən Nurlan Abışov ifadəsində bildirib ki, Ağdərə rayonunun Canyataq kəndi ərazisində düşmən tərəfindən atılan "F1" əl qumbarasının partlaması nəticəsində özü, Cavanşir Xəlilov və Pərviz Şirinov xəsarət alıblar.

Hüseyn Müseyibov Ağdərə rayonunda dağlıq-meşəlik ərazidə düşmənin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Zərərçəkən Bəxtiyar İsmayılov ifadəsində qeyd edib ki, Ağdərə rayonunda dağlıq-meşəlik ərazidə düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində sol baldır nahiyəsindən xəsarət alıb.

Cəfər İsmayılov Xocalı rayonunun Xanabad kəndi ərazisində düşmən tərəfindən atılmış əl qumbarasının yaxınlığına düşüb partlaması nəticəsində yaralandığını deyib.

Telman Əhmədov ifadəsində bildirib ki, Xocalı rayonunun Xanabad kəndi ərazisində Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində xəsarət alıb.

Digər zərərçəkənlər - Babək Əhmədli, Ömər Nəsirov, Nurlan İbrahimov, Cavid Süleymanov, Elvin Hüseynov, Əkbər Səfərov, Ramil Məmmədov, Rəşad Süleymanov, Namiq Əlizadə, Raqif Mirzəyev, Vüsal Əhmədov, Afər Hüseynov, Bayram Hüseynov, Sərxan Mahmudov, Niyaz Niyazəliyev, Yasin Cəbrayılov, Ruslan Nurəliyev müxtəlif ərazilərdə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatları nəticəsində yaralandıqlarını bildiriblər.

Zərərçəkmiş Əkbər Səfərov təqsirləndirilən Ruben Vardanyanın sualına cavabında deyib ki, həmin vaxt təxribatı törədən Ermənistan ordusu olub.

Bundan başqa, məhkəmə prosesinin gedişində Ruben Vardanyanın vəkili təqsirləndirilən şəxslə konfidensial görüş üçün imkan yaradılmasını xahiş edib. Məhkəmə vəsatəti təmin edib.

Məhkəmənin növbəti iclası sentyabrın 23-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# Şəhid anası xəstəxanada ziyarət edilib

Salyan Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov səhhəti ilə əlaqadar Salyan Rayon Mərkəzi Xəstəxanası Publik Hüquq Şəxsdə müalicə alan şəhid anası Şirinova Könül Vəkil qızını ziyarət edib.



Rayon rəhbəri ziyarət zamanı şəhid anasının sağlamlıq durumu və qayğıları ilə maraqlanıb, şəfalarını diləyib, hər zaman onların yanında olduğunu bildirib. Görüşdə RİH başçısı Vətənimiz üçün layaqətli övlad böyütdüyünə görə anaya təşəkkür edib.

Hazırda səhhətinin yaxşılığa doğru dəyişdiyini söyləyən ana şəhidlərin ailə üzvlərinin sağlamlığının daim diqqətdə saxlanılmasını, onların sosial müdafiəsinin davamlı olaraq gücləndirilməsini hər kəsin təqdirəlayiq hal kimi qiymətləndirdiyini bildirib və buna görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Şirinova Könül Vətən müharibəsində şəhidlik ziravəsinə ucalan kapitan Kamil Şirinovun anasıdır.

***S.CAVADOV,***
***"Azərbaycan"***

# Ağstafada payız-qış mövsümünə hazırlığın vəziyyəti müzakirə edilmişdir

Ağstafa rayonunda payız-qış mövsümünə hazırlığın vəziyyəti müzakirə edilmişdir.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov çıxış edərək Prezident İlham Əliyevin ölkəmizin tərəqqisi, xalqımızın firavanlığı naminə gördüyü işlərdən danışmış, o cümlədən Ağstafa rayonunda aparılan genişmiqyaslı abadlıq və quruculuq işlərindən, sosial infrastruktur layihələrindən söhbət açmışdır.

Sonra icra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Lalə Eyyubova, Ağstafa Elektrik Şəbəkəsinin rəisi Namaz Mənsimov, Şəmkir Regional Qaz İstismar İdarəsinin Ağstafa rayon xidmət sahəsi üzrə rəis müavini Anar Qocayev, dövlət



yanğın nəzarəti şöbəsinin inspektoru Xaliq Omarov, rayon heyvan sağlamlığı baytarlıq xidməti idarəsinin rəisi Şəfayət Bağırov payız-qış mövsümünə hazırlığın vəziyyəti llə bağlı hesabat məruzələri ilə çıxış etmişlər. Sonra hesabat məruzələri ilə bağlı müzakirələr aparılmışdır. Müzakirələrdə avtomobil yollarındakı su ötürücü boruların giriş-çıxışlarının körpülər yerləşən sahələrində çayların məcrasının təmizlənməsi, yollarda sürüşkənliyin ləğv edilməsi üçün duz və qum ehtiyatının görülməsi, o cümlədən Ağstafa şəhər mənzil kommunal təsərrüfatı birliyi üzrə çoxmənzilli yaşayış binalarının tüstü və havalandırma şaxtalarının təmizlənməsi, rayon mərkəzi xəstəxanasının və digər bu kimi vacib kateqoriyalı binaların isidilməsini təmin edən qazanxanaların saz vəziyyətə gətirilməsi ətrafında fikir mübadiləsi aparılmışdır.

Tədbirdə payız-qış mövsümünə hazırlıqla bağlı mövcud nöqsanlardan da danışılmış, aidiyyati idarə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Yeni məktəb binaları istifadəyə verildi





Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikanın hər yerində olduğu kimi, Astara rayonunda da məktəblərin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Yeni dərs ilində Azərbaycanın Milli Qəhrəmanı Yalçın Nəsirov adına Sərək kənd tam orta ümumtəhsil məktəbi üçün inşa edilən 264 şagirdlik məktəb binası istifadəyə verilmişdir.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdiri Bəhruz Mehdiyev, müəllimlər, şagirdlər, kənd ictimaiyyəti iştirak etmişdir. İcra başçısı bildirmişdir ki, müstəqil, suveren dövlətimizdə bütün sahələrə olduğu kimi, təhsilə də xüsusi önəm verilir: "Prezident İlham Əliyevin rəhbərliyi altında icra olunan dövlət proqramlarında prioritet məsələrdən biri - təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və təhsilin keyfiyyətinin yaxşılaşdırılması məsələsi diqqət mərkəzindədir. Ötən illər ərzində yüzlərlə yeni məktəb binaları tikilərək istifadəyə verilmişdir. Astara rayonunda da son illər xeyli yeni məktəb binası tikilmiş və köhnə məktəb binaları əsaslı təmir olunmuşdur. Bunlardan biri də Sərək kəndində tikilmiş və bu gün açılışında iştirak etdiyimiz tam orta məktəbdir. Bu münasibətlə məktəbin şagird və müəllim kollektivini, valideynləri və bütün kənd ictimaiyyətini təbrik edirəm. Əvvəllər yararsız vəziyyətə düşmüş, darısqal, köhnə məktəb binasında tədris aparıldığından dərs məşğələlərinin müasir səviyyədə təşkili mümkün deyildi. Səyyar qəbul və görüşlərdə sakinlər kənddə yeni məktəb binasının tikintisinə ehtiyac olması barədə dəfələrlə təklif və arzularını bildirmişdilər. Prezidentin sərəncamı ilə qısa müddət ərzində kənddə müasir tipli yeni məktəb binası tikilib istifadəyə verilmişdir. Hər cür inventar və avadanlıqlarla təmin olunan binada şagirdlərin yüksək səviyyədə bilik alması üçün bütün imkanlar var. Bu məktəb həm də Azərbaycanın dövlət suverenliyinin qorunmasında şəhid olmuş Milli Qəhrəmanımız Yalçın Nəsirovun adını daşıyır. İnanıram ki, məktəbin işgüzar pedaqoji kollektivi müasir tələblərə cavab verən, şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hər cür şərait yaradılan yeni məktəbdə səylərini daha da artıracaq, şagirdlər də elmin sirlərinə yiyələnmək üçün maksimum çalışaraq savadlı, nümunəvi və Yalçın kimi qəhrəman, vətənpərvər gənclər olacaqlar. Bir daha hər birinizi təbrik edir, uğurlar arzulayıram".

Lənkəran-Astara regional Təhsil İdarəsinin müdiri Bəhruz Mehdiyev və Milli Qəhrəman Yaçın Nəsirovun əmisi Rafiq Muradov tədbirdə çıxış etmişlər.

Ən müasir layihə ilə inşa edilən üçmərtəbəli binada bütün zəruri avadanlıqlarla təchiz olunmuş sinif otaqları, laboratoriyalar, fənn kabinetləri, kitabxana, bufet, akt və idman zalı var. Hərbi kabinetin ən yeni təlim avadanlıqları ilə təchiz edilməsi şagirdlərin ilkin hərbi biliklərə yiyələnməsində mühüm rol oynayacaq.

Pedaqoji kollektivin, şagird və valideynlərin uzun illərdən bəri arzusunda olduğu məktəb binasının yeni dərs ilinin ilk günündə istifadəyə verilməsi kənd sakinlərinin böyük sevincinə səbəb olmuş, onlar bu diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

❖ ❖ ❖

Biləsuvar rayon Rafiq Rzayev adına Nəsimi kənd tam orta məktəbi üçün inşa olunmuş 624 şagirdlik yeni binanın açılış mərasimi keçirilib. Mərasimdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Milli Məclisin deputatı Bəhruz Məhərrəmov, təhsil işçiləri, məktəbin müəllim kollektivi və şagird heyəti iştirak edib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla yad ediblər, sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Açılış mərasimdə çıxış edən RİH-in başçısı Faiq Qürbətov Bilik Günü və yeni məktəbin açılışı münasibətilə pedaqoji kollektivi, şagird və valideynləri təbrik edərək onlara yeni dərs ilində uğurlar arzulayıb. İcra başçısı bildirib ki, ölkəmizdə təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsinə, bu sahədə keyfiyyətin yüksəldilməsinə göstərilən dövlət qayğısı bir daha təsdiq edir ki, təhsil dövlətin prioritet sahəsidir. Rayonumuzda yeni məktəblər tikilir, əsaslı təmir olunur və məktəblərin maddi-texniki bazaları genişləndirilir. Bu istiqamətdə görülən işlər müəllimlərin iş, şagirdlərin təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından da böyük əhəmiyyət kəsb edir.

Tədbirdə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov, Şirvan-Salyan regional Təhsil İdarəsinin şöbə müdiri Müşfiq Dadaşov və digərləri çıxış edərək 15 Sentyabr Bilik Günü və məktəbin yeni binasının açılışı münasibətilə xoş sözlərini bildirib, kollektivə uğurlar arzulayıblar.

Açılış mərasimində çıxış edənlər təhsil sahəsinə göstərilən yüksək dövlət qayğısına görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda qonaqlar məktəb binasına baxış keçirib, sinif otaqlarında və fənn kabinetlərində yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, 1972-ci ildən fəaliyyət göstərən məktəbin binası köhnə və yararsız vəziyyətdə olduğu üçün Prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq 2023-cü ilin fevral ayından məktəbin yeni binasının tikintisinə başlanılmışdı. Hazırda istifadəyə verilən 624 şagirdlik məktəbin yeni binasında sinif otaqlarından əlavə, fizika, kimya, biologiya laboratoriyaları, hərbi hazırlıq, əmək otaqları, kitabxana və oxu zalı, informatika otağı, akt zalı, idman zalı və yeməkxana mövcuddur. Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri, internet və telefon xətti də çəkilib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Şabran üzümü - bal qətrəsi, mirvari dənəsi

**Şimal bölgəsinin ecazkar təbiətə, çoxşahəli iqtisadiyyata malik rayonlarından biri də Şabrandır. Respublikamızda aparılan aqrar islahatlardan qaynaqlanan layihələrin bir çoxu burada da reallığa çevrilir. Rayonun kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün əlverişli ərazilərə malik olması buna imkan verir. Belə məhsullardan biri də üzümdür.**



Şabranda üzümçülük xüsusi diqqət tələb edən aqrar sahələrdən hesab olunur. Belə ki, rayonun ərazisində 273,4 hektar süfrə üzümü və 132,5 hektar şərab üzümü olmaqla cəmi 405,9 hektar üzüm bağı yetişdirilir. Üzümçülük sahəsi bütün ölkədə olduğu kimi, Şabran rayonunda da artmaqda davam edir. Elə bunun göstəricisi olaraq son beş ildə 21 hektar üzüm bağı salınmışdır. Ağ və qara kişmişi, Ağadayı, Mirəndi, Təbrizi və s. rayonda ən çox əkilib becərilən sortlardır.

Son beş ildə rayon fermerləri xarici ölkələrdən gətirdikləri yeni üzüm sortlarını da praktik olaraq sınaqdan keçiriblər. Özbəkistandan gətirilən Gəlinbarmağı üzüm sortu özünü doğruldub. Həm məhsuldarlığının yüksək olması, həm də əkin zamanı budaqlarının möhkəmliyi sayəsində bu sorta bir qədər az əmək sərf edilir. İkinci bir sort isə İspaniyadan gətirilib. Onun da məhsuldarlığı yüksəkdir - bəzən bir salxımı 7-8 kiloqram gəlir.

Şabranda süfrə və texniki üzüm sortları becərilir. Rayon ərazisində həmçinin "Red Globe", "Ağ hüseyni", "Mədrəsə", "Ağ Kişmişi", "Ağ şanı" və s. fermerlərin daha çox üstünlük verdiyi üzüm sortlarıdır. Bu növlər də özünü doğrultmaqdadır.

Rayonda iri üzümçülük təsərrüfatları fəaliyyət göstərir. Vinneru-Soarb MMC-nin torpaq sahəsi əsasən Ağbaş kəndindədir. 121 hektar üzüm sahəsinin cəmi 10 hektarında süfrə üzümü yetişdirilir. Yerdə qalan ərazilərdə becərilən texniki sortlardır. Bu müəssisənin üzümləri əvvəlki illərdə Belarus, Ukrayna və Rusiyaya daşınar və fermer təsərrüfatı bundan xeyli gəlir götürərdi. Hazırda mövcud şəraitlə əlaqədar məhsulun yalnız bir hissəsi daşınır. Yerdə qalan məhsul respublikamızın şərab emalı müəssisələrinə verilir.

Rayonda fəaliyyət göstərən Zaman və Turaz MMC-ləri də uzun illərdir ki, üzümçülüklə məşğul olur. Gandov və Dəvəçi kəndlərində yerləşən müəssisələr 44 hektar ərazidə məskunlaşıb. Burada əsasən süfrə üzümü becərilir. Turaz MMC-nin ərazisində 12 min tonluq saxlama kamerası var. Təkcə Şabran deyil, ətraf rayonlardan məhsullar buraya saxlanmaq üçün daşınır. Alma, nektar və armud bağlarında yetişdirilən meyvələr həmin soyuducu anbarlarda müxtəlif fəsillərdə olduğu kimi, yəni keyfiyyətini itirmədən saxlanılır.

Rayon camaatı öz şəxsi təsərrüfatlarında da üzümçülüyə böyük maraq göstərir. İlk salınan bağlara görə dövlət tərəfindən verilən subsidiyalar sahibkara bağını becərməkdə kömək olur. Az bir zamanda əkilən tinglərin məhsul verməsi fermeri ruhlandıran amillərdəndir. Təxminən iki il ərzində məhsulu ortaya qoyan sahibkar yeni sortların ardınca gedir. Məhsuldar sortlar üzüm üçün ayrılan sahələrdə elə birinci ilində özünü doğruldur. Yenicə boy atan üzümün gələcək məhsuldarlığı texniki qaydalarla becərilməsindən çox asılıdır. Həm də Şabranda dağlıq və Aran ərazilərdə üzüm becərilməsi təcrübəsi özünü doğruldub. Dərman pereparatları da fermerlərə vaxtında çatdırılır. Odur ki, builki məhsuldarlıq da ürəkaçandır.

Avqust ayının əvvəllərindən başlanan üzüm yığımı fermerlər tərəfindən yüksək səviyyədə təşkil olunub. Məhsulu yığılmış 101 hektar üzümdən 450 ton məhsul əldə edilib ki, bu da orta məhsuldarlığın 48,5 sentner olması deməkdir. Amma Moldova və Belarusda məhsuldarlıq 70 tondan artıqdır. Gələcəkdə Şabran fermerləri məhsuldarlığı artırmaq üçün yollar axtarır. Eyni zamanda yeni sortların təsərrüfatlarda tətbiqini reallaşdırmaq fikrindədirlər.

Bu gün respublikamızın yarmarka, bazar və marketlərində ən çox satılan Şabran üzümüdür. Anbarlara yığılan, ilin müxtəlif fəsillərində alıcı məmnuniyyəti ilə qarşılanan Şabran üzümü bal kimi şirin dadı, mirvari dənəsi kimi gözəlliyi ilə həmişə süfrələrimizdədir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Göytəpə şəhərində yeni asfalt örtüyü vurulan küçələrə baxış keçirilib

Prezident İlham Əliyevin rəhbərliyi altında regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası sayəsində bütün bölgələrimiz, o cümlədən də Cəlilabad rayonu gündən-günə abadlaşır. Bir neçə ildə Cəlilabadda aparılan abadlıq işləri bunun bariz nümunəsidir.



Rayonda aparılan abadlıq işləri bu il də uğurla davam etdirilir. Belə ki, Göytəpə şəhərində nəqliyyat vasitələrinin hərəkətinin yaxşılaşdırılması, vətəndaşların rahatlığını təmin etmək məqsədilə təqdirəlayiq işlər görülür. Bu günlərdə Cəlilabad RİH-in başçısı Rafiq Cəlilov yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədilə Göytəpə şəhər ərazisində Rövşən İsmayılov, İnqilab Niftullayev, Yusif Məmmədəliyev və Akif Xanışov küçələrində asfaltlanma işlərinə baxış keçirmişdir.

Görülən işlərlə yerində tanış olan icra başçısı hər bir işin keyfiyyətinə üstünlük verilməsini tapşırıb, aidiyyəti üzrə tövsiyələrini verib.

***"Azərbaycan"***

# Ələt-Astara avtomobil yolunda təmizlik işləri davam edir

Ələt-Astara avtomobil yolunun Masallı rayonundan keçən hissəsində mütəmadi olaraq təmizlik və abadlıq işləri aparılır.

Bu günlərdə Ələt-Astara avtomobil yolunun Təzə Alvadı ərazisindən keçən hissəsində Masallı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin təşəbbüsü ilə 11 saylı Masallı Regional Meşə Təsərrüfatı Mərkəzi və Masallı Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin əməkdaşları tərəfindən təmizlik aksiyası keçirilmişdir. 16 nəfərin iştirak etdiyi təmizlik aksiyasında sözügedən ərazidən 125 kq-a qədər plastik və bərk məişət tullantıları yığılaraq aidiyyəti üzrə Masallı şəhəri ərazisində yerləşən tullantı poliqonuna daşınmışdır.

Masallı rayonunun bütün yaşayış məntəqələrində təmizlik və abadlıq işləri mütəmadi olaraq davam etdirilir.

***"Azərbaycan"***



## Üzeyir bəy Hacıbəyli – 140

**Milli hərəkatın formalaşmasında, millətin öz taleyini müəyyənləşdirməyə hazırlanmasında M.F.Axundzadədən üzübəriyə böyük fikir adamları içərisində Üzeyir bəy Hacıbəylinin müstəsna xidmətləri vardır. Yazıçı, musiqişünas, publisist, pedaqoq, jurnalist kimi çoxcəhətli fəaliyyəti ilə ədəbiyyat, mədəniyyət və mənəviyyat tariximizdə xüsusi yeri olan Üzeyir bəy Hacıbəyli "...Azərbaycan ədəbiyyatının nəhəng titanlar meydana çıxardığı müstəsna tarixi mərhələ"nin bənzərsiz yetirməsidir. Böyük ədibin zəngin yaradıcılıq irsinin əhəmiyyətli bir hissəsini dövrünün ən aktual məsələlərinə həsr etdiyi publisistik yazıları təşkil edir.**



# Üzeyir bəy Hacıbəylinin publisistikasında zamanın nəbzi döyünürdü

Üzeyir bəy Hacıbəylinin XX əsrin əvvəllərində fəaliyyət göstərən dövri mətbuat orqanlarında açıq və gizli imzalarla dərc olunan müxtəlif səpkili yazıları onun publisistikasının möhtəşəmliyindən xəbər verir. O, müxtəlif illərdə "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal", "Azərbaycan" qəzetlərinin, "Molla Nəsrəddin" jurnalının səhifələrində müntəzəm çıxışlar etmişdir. Ü.Hacıbəylini dövrünün nəhəng publisistləri Ə.Ağaoğlu və C.Məmmədquluzadə ilə əqidə yaxınlığı birləşdirirdi. Ü.Hacıbəyli 1905-1909-cu illərdə Əhməd Ağaoğlunun təsis etdiyi qəzetlərdə aparıcı yazar olmuş, onu zamanının əsl söz sahibi kimi təsdiqləyən və məşhurlaşdıran "Filankəs" imzası ilə "Ordan-burdan" başlıqlı yazılarını "İrşad" və "Tərəqqi" qəzetlərində dərc etdirmişdir. Ə.Ağaoğlunun qəzetlərinin qapadılması və onun İstanbula köçüb getməsindən sonra - 1912 və 1915-ci illərdə "İqbal" və "Yeni İqbal" qəzetlərində də "Filankəs" imzası ilə "Ordan-burdan" silsilə yazılarını davam etdirmişdir.

Ü.Hacıbəyli mədəni düşüncə tariximizdə həm də məşhur mollanəsrəddinçilərin məslək qardaşı hesab olunur. Bu bənzərsiz publisistin "Molla Nəsrəddin" jurnalının səhifələrində müxtəlif imzalarla bir sıra yazıları dərc olunmuşdur. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçıları Mir Cəlal və F.Hüseynov Ü.Hacıbəylinin bir publisist olaraq mənən "Molla Nəsrəddin"ə bağlılığını xüsusilə vurğulayırlar: "Onun publisist yaradıcılığı bütün ruhu, canı, qanı, həmçinin mövzu dairəsi etibarı ilə "Molla Nəsrəddin"ə yaxındır, onunla səsləşməkdədir".

Ü.Hacıbəylinin publisistikasında XX əsrin əvvəllərindəki narahatlıqlarla dolu Azərbaycanın gerçək tablosu əks olunmaqdadır. Ü.Hacıbəylinin bütün yazılarının leytmotivini Azərbaycan məsələsi təşkil edir. Böyük ədibin publisistikasının gücü və əhəmiyyətindən bəhs edən akademik Mirzə İbrahimov belə qənaətdə idi ki, onun komediyalarındakı "mütərəqqi, demokratik fikirlər, köhnə həyatı və geriliyi təmsil edən tipləri tənqid, zülmkar təbəqələrin nümayəndələrinə qarşı satirik gülüş öz başlanğıcını publisistikadan alır".

XX əsrin əvvəllərində bütün Azərbaycan ziyalıları kimi, Ü.Hacıbəylini də narahat edən məsələlərdən biri çar hökumətinin hər cür himayəsinə arxayınlaşıb xalqlar arasında düşmənçilik toxumu səpən, bütöv Qafqazı qana boyayan, xalqımıza qarşı hüdudsuz soyqırımı törədən erməni millətçiliyi və onun acı nəticələri idi. Ü.Hacıbəyli "İrşad" qəzetinin 9 mart 1906-cı il tarixli 64-cü sayında dərc etdirdiyi "Biz hamımız qafqazlı balalarıyıq" yazısında böyük təmkinlə ermənilərə üz tutaraq onları həqiqəti dərk etməyə, qanlı hadisələrin haradan körükləndiyini görməyə, haqq yoluna gəlməyə çağırır və "birimizin düşməni varsa, hamımızın düşmənidir, dəfinə hamımız çalışmalıyıq" deyirdi. Ü.Hacıbəyli humanizm və insanlıq prizmasından çıxış edərək erməniləri tutduqları yolun qorxulu olduğunu dərk etməyə səsləyirdi. Ümumiyyətlə, həmin dövrdə Azərbaycan ziyalıları çarizmin və ermənilərin fitnəkarlığının qanlı nəticələrə gətirib çıxardığını ("Fitneyi-iblisi-məlun oldu nagəh aşikar..., Gör cəhələtdən nə şəklə düşdü vəzi-ruzigar" - M.Ə.Sabir), dayanmağın vacibliyini var gücləri ilə söyləmələri bəşəri düşüncəyə sahibliklərinin göstəricisi olduğu halda, erməni ziyalıları soydaşlarının törətdiyi kütləvi qırğınları açıq-aşkar təşviq etməklə şərin önündə gedirdilər.

Ədibin publisistik irsinin təhlili onu göstərir ki, erməni millətçiliyinə qarşı mübarizə Ü.Hacıbəylinin gündəlik həyatının ən aktual vəzifələrindən olmuşdur. Akademik Bəkir Nəbiyev diqqəti məhz bu məsələyə yönəldərək yazırdı: "...Üzeyir bəyin publisistikasında XX əsrin əvvəllərinin iki çox vacib probleminə münasibət özünün geniş və yerli-yataqlı inikasını tapmışdır. Bunlardan biri baxtına ən azı 100 il "Xalqlar həbsxanası" Rusiya imperiyasının tərkibində yaşamaq kimi ağır bir tale yazılmış Azərbaycanın vəziyyəti, digəri isə bütün Qafqazı xərçəng xəstəliyi kimi təhdid edən və özünün əsas məqamları ilə birinci problemlə sıx bağlı olan erməni sindromu idi". Üzeyir bəy "İrşad" qəzetinin 1906-cı il 16 iyul tarixli 166-cı sayında dərc etdirdiyi yazı bu baxımdan kifayət qədər xarakterikdir. Ü.Hacıbəyli yazıda keçən əsrin əvvəllərində erməni-türk (müsəlman) münasibətlərini normallaşdırmaq üçün Şuşaya göndərilən general V.N.Qoloşapovun açıq-aşkar ermənilərin mövqeyini müdafiə etməsini, Şuşada azərbaycanlıların yaşadığı məhəlləni bir bəhanə ilə topa tutmasını, qırğınlar törətməsini, nahaq qanlar axıtmasını kəskin şəkildə pisləmiş, çarizmin ayrı-seçkilik siyasətini qəzəblə qamçılamış, əsl günahkarın ünvanını göstərmişdir: "Eylə isə bir Şuşa şəhəri deyil, bütün Rusiya top-tüfənglərə tutulub, atəşlərə yaxılıb, alt-üst edilməliydi!" General Qoloşapovun timsalında mərkəzi hökumətin birmənalı şəkildə erməniləri müdafiə etməsi, türk əhalinin kütləvi qırğınlarına göz yumması, yeri gəldikcə erməniləri əlavə qırğınlara sövq etməsi Ü.Hacıbəyli kimi digər ziyalılarımızı da dərindən narahat etmişdir.

C.Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının 1906-cı il 28 iyul tarixli 17-ci sayında "Qoloşapova" adlı məqaləsində əsl həqiqətləri ironiyaqarışıq generalın üzünə çırpırdı: "Ey yari-bivəfa, Qoloşapov! Bu imiş məgər dostluğun şəraiti?.. Heç bilirsənmi ki, kimi qırırsan, kimin evlərini topa tutursan, kimin məhəlləsinə od vurub yandırırsan? Məgər Qarabağ müsəlmanlarını tanımırsan?.. Məgər müsəlmanlar sənin padşahın barəsində etdiyi rəftarın əvəzidir ki, sən müsəlmanlar barəsində eləyirsən?" General Qoloşapovun hüdudsuz özbaşınalığı və birtərəfli qaydada erməniləri müdafiə etməsi azərbaycanlıları çox ciddi narahat etdiyindən onun geri çağırılması barədə tanınmış din xadimlərinin Qafqaz canişininə müraciətləri nəticəsiz qalmışdır. "Molla Nəsrəddin" bu məsələni də diqqətdə saxlamış, jurnalın növbəti sayında "Qoloşapovun geri çağırılması" adlı daha bir yazı dərc edilmişdir.

Ü.Hacıbəyli və C.Məmmədquluzadənin kəskin tənqid hədəfinə tuş gələn rus generalı haqqında mühacir yazıçı, Azərbaycan Xalq Cümhuriyyəti dövründə məsul vəzifə tutmuş Nağı bəy Şeyxzamanlı da "Xatirələr"ində qısaca bəhs etmişdir: "...O, Qarabağda diviziya komandiri idi. Diviziyada qulluq edən erməni əsgərlərinə mülki paltar geydirərək, silahsız türkləri qətl etdirmişdir". N.Şeyxzamanlı xatirələrində generalın layiq olduğu aqibəti barədə də bir neçə söz söyləmişdir.

Ü.Hacıbəyli erməni xislətinə dərindən bələd olduğundan yaxşı bilirdi ki, onlar bütün sahələrdə xalqımıza qarşı total bir mübarizəyə girişmişlər və havadarlarının aşkar köməyindən istifadə edərək hər vəchlə milli-mədəni tərəqqiyə gedən yolumuzu kəsməklə məşğuldurlar. XX əsrin əvvəllərində azərbaycanlıların qəzet və jurnallar təsis etmək, nəşriyyatlar və cəmiyyətlər yaratmaq təşəbbüslərinin qarşısını alır, əllərində olan vasitələrdən istifadə edərək hər cür qarayaxma kampaniyalarına rəvac verirdilər. Erməni yazarlar, erməni siyasətçilər və erməni kilsəsinin birgə bədnam "xor"u ermənilərin beyinlərini zəhərləyir, onları azərbaycanlılara, bütün Qafqazda türk-müsəlman əhaliyə qarşı qaldırır, kütləvi qırğınlara sövq edirdi. İstər çar Rusiyası dövründə, istərsə də sovetlər zamanı ermənilər mərkəzi hökumətdən hər cür dəstək alaraq öz çirkin niyyətlərini həyata keçirməyə çalışmışlar.

1988-ci ildə azərbaycanlıların tarixi torpaqları olan Qərbi Azərbaycandan kütləvi şəkildə deportasiya olunmaları, günahsız insanların qətlə yetirilməsi, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, Xocalıda və digər ərazilərimizdə ermənilərin həyata keçirdiyi soyqırımı siyasəti, maddi və mənəvi mədəniyyət abidələrimizin yerlə yeksan edilməsi ermənilərlə birlikdə onları himayə edən qüvvələrin də ləkəli vicdanlarına yazılmışdır. Bədnam erməni cılızlığı o həddə çatmışdı ki, işğal dövründə Şuşada əslən şuşalı olan böyük ədəbiyyat və mədəniyyət xadimlərimizin - Natəvanın, Bülbülün, Üzeyir bəyin abidələri də güllələnmişdi. Erməni işğalına, heç bir əndazəyə sığışmayan erməni vandalizminə dözməyən Azərbaycan xalqı 2020-ci ildə müqəddəs Vətən müharibəsinə qalxdı, dövlət-xalq birliyi və "dəmir yumruq"la azğın düşməni müqəddəs torpaqlarımızdan birdəfəlik və əbədi olaraq təmizlədi. Ü.Hacıbəyli bütün həyatı boyu öz yaradıcılığında məhz xalqımızın mənəvi birliyi məsələsini qoymuş, həmvətənlərini erməni şərinə, erməni fitnəfəsadına qarşı ayıq olmağa səsləmişdir. Bu gün Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası, Qarabağ və Şərqi Zəngəzurda, o cümlədən Şuşada aparılan böyük quruculuq işləri həm də Üzeyir bəyin ideallarının təntənəsidir.

Ü.Hacıbəylinin publisistikasında zamanın nəbzi döyünür, XX əsrin əvvəlləri Azərbaycan cəmiyyətini düşündürən elə bir problem yoxdur ki, böyük ədib ona toxunmasın. O, publisistik sözün gücü ilə beyinlərə yol tapmağa, şüurlarda dəyişikliklər etməyə çalışır, dövrün ən aktual məsələlərindən danışanda fikir və mülahizələrinin hədəfə çatması üçün müxtəlif üsul və vasitələrdən istifadə edirdi. Bu məqamda onun siyasi maarifçiliyindən bəhs etmək lazım gəlir və ədibin bu qəbildən olan əsərləri siyasi publisistikanın dəyərli nümunələri kimi diqqəti cəlb edir. Bu baxımdan ədibin "Dövlət Dumasının açılmağı" məqaləsi kifayət qədər aktualdır və maarifləndirmə məqsədilə yazılmışdır. Məqalə "İrşad" qəzetinin 11, 12, 14, 15 və 16 may 1906-cı il tarixli 110-114-cü saylarında təfriqə şəklində işıq üzü görmüşdür. Ü.Hacıbəyli Dövlət Duması, Dumanın formalaşmasını şərtləndirən ictimai-siyasi amillər, onun vəzifələri, cəmiyyət üçün əhəmiyyəti və sairə məsələlərə aydınlıq gətirməyi vacib hesab etmişdir. O, Dövlət Dumasının yaradılmasına hökumətin məcburiyyət qarşısında, bütün ölkəni iğtişaşların bürüməsi, məşhur tezisdə deyildiyi kimi, "yuxarılar"ın köhnə qaydada idarə edə bilmədikləri, "aşağılar"ın isə köhnə qaydada yaşamaq istəmədikləri bir şəraitdə razılıq verdiyini yazırdı. Ü.Hacıbəyli Dumanın yaradılmasında xarici və daxili situasiyanı incəliklərinə qədər analiz edir və hökumətin məcburiyyət üzündən demokratik dəyişikliyə getdiyini yazırdı: "...O idi ki hökumət öz tərzi-idarəsini, yəni dolanacaq üsulunu dəyişməyə məcbur olub, camaatın dövlət işlərinə qatışıb, padşah ilə bir yerdə iş görməsinə razı oldu".

Üzeyir bəy daha sonra seçki məsələsinə aydınlıq gətirərək qeyd edir ki, camaat öz arasından ən layiqliləri seçib padşah yanında qurulan məclisdə qanun hazırlamağa göndərir. O, həmin məclisin əhəmiyyətindən bəhs edərək Yaponiya, İngiltərə, Almaniya kimi dövlətlərin məhz bunun sayəsində tərəqqiyə çatdıqlarını göstərmişdir. Ü.Hacıbəyli yazırdı ki, İran, Çin və Osmanlıda qanunlar qəbul edən bir qurumun olmaması səbəbindən həmin dövlətlər "onun-bunun yemi və xörəyi olubdur", əhalisi də zillət içərisindədir... Ü.Hacıbəyli "seçilmişlər məclisi"nin ümumi adının parlament olduğunu, Rusiya hökumətinin bu məclisə "Qosudarstvennaya duma" adı qoyduğunu yazır: "Biz də öz türk dilimizdə Dövlət Duması, yaxud Məclisi-Məbusan deyirik". Ü.Hacıbəylinin parlament haqqında maarifləndirici fikirləri böyük sələfi M.F.Axundzadənin "Kəmalüddövlə məktubları"nda məhz parlament haqqındakı düşüncələri ilə üst-üstə düşür. Üzeyir bəy də M.F.Axundzadə kimi, yaxşı anlayırdı və xalqı başa salmağa çalışırdı ki, qanundankənar idarəçilikdə zor və sitəm əks-təsirə səbəb olur və bundan bütövlükdə cəmiyyət əziyyət çəkir. Şübhəsiz ki, həm M.F.Axundzadə, həm də Ü.Hacıbəyli öz dövrlərində Rusiya hakim dairələrində cəmiyyətin qanunlarla idarə olunmasının vacibliyini dərk və qəbul edən siyasi təfəkkür sahiblərinin olduğuna inanmırdılar. Onlar yaxşı bilirdilər ki, bu sahədə atılan bütün addımlar siyasi rejimi qoruyub saxlamaq üçündür.

Ü.Hacıbəyli yazının davamında siyasi idarəçiliklə bağlı görüşlərini təqdim edir. Qanunların, ümumiyyətlə, olmadığı, hər şeyin bir nəfərin iradəsinə bağlı rejimləri o, "hökuməti-müstəqilə və müstəbidə", xalqın iradəsinin hesaba alındığı idarə üsulunu isə "hökuməti-məşrutə" kimi təqdim edir və hər ikisinin siyasi mahiyyətini açıqlayır. Müəllif hökumətin Dövlət Dumasına seçkilərdə bütün xalqın iştirakını əngəlləmək üçün ən müxtəlif süni maneələrə əl atdığını, fəqət zaman dəyişdiyindən geniş kütlələrin təzyiqləri altında güzəştə getməyə məcbur olduğunu yazır. O, 1905-ci ilin 17 oktyabrında çarın məcburiyyət qarşısında qalıb manifest imzaladığını qeyd edir və tarixə 17 oktyabr Manifesti kimi düşmüş sənədin əhəmiyyətindən bəhs edir. Manifestin imzalanması ilə əldə olunan azadlıqlara nəzər salmaq kifayətdir ki, siyasi rejim həmin vaxta qədər hansı qeyri-insani tədbirlər həyata keçirmişdir. Həmin azadlıqlar barədə Ü.Hacıbəyli yazırdı: "Yığılıb öz ehtiyaclarını danışmağı qadağan edən qanunları götürdü, ruslaşdırmaq və nəsrani etmək və bir dindən o biri dinə keçməməyə qoymamaq əmrini pozdu..." Siyasi hadisələri xronoloji ardıcıllıqla izləyən Ü.Hacıbəyli məlum manifestdən sonra hökumətin verdiyi sözə əməl etmədiyini yazır və onun irticaçı mahiyyətini açıb göstərirdi.

Ü.Hacıbəyli Dövlət Duması ilə bağlı mətbuatda müntəzəm yazılarla çıxış etmişdir. Onun "Dövlət Duması haqqında", "Vəkillərimiz nə tövr olmalıdır?", "Dövlət Duması və ministrlər", "Duma buraxıldı", "Dövlət dumasının buraxılmasına dair", "Dövlət duması buraxılacaqmı, yoxmu?", "Dumanın halı" və s. kimi yazılarında XX əsrin əvvəllərində Rusiyada və onun təsiri ilə Azərbaycanda gedən siyasi proseslər bütün yönləri ilə öz əksini tapmışdır. Ədibin "Vəkillərimiz nə tövr olmalıdır?" yazısı kifayət qədər maraqlıdır, aktual bir məsələyə həsr olunmuşdur. "İrşad" qəzetinin 1906-cı il 126-cı sayında dərc olunan yazı Bakı quberniyasından Dövlət Dumasına nümayəndələrin seçildiyi günlərdə işıq üzü görmüşdür.

Üzeyir bəy millətin vəkili olmağı böyük məsuliyyət və bir vicdan işi hesab edir, vəzifəsinin öhdəsindən gələ bilməyəcəyini daxilən hiss edənləri bu yoldan çəkinməyə səsləyir və yazır: "Əhali tərəfindən vəkil olub, Dövlət Dumasına gedən şəxsə lazımdır ki, onu layiq bilib seçən əhalinin rifah və səadətinə çalışmağı niyyət edib, yalqız bir bu niyyətin hüsulə gəlməsinə sərfi-məsan etsin. Bu yolda heç bir mümaniət gərək onun qabağını kəsməsin". O, millətin vəkili üçün meyarları da müəyyənləşdirmişdir. Birincisi, "vəkil olan şəxs gərək əhalinin hər bir ehtiyacından xəbərdar olsun. İkincisi, əhalinin ehtiyaclarından xəbərdar olan vəkil rus dilini mükəmməl bilməlidir ki, problemləri lazımi səviyyədə qaldıra bilsin. Üçüncüsü, vəkil cürətli, cəsarətli olmalıdır: "... əhali ehtiyacatından xəbərdar olub, o ehtiyacı söyləməyə də qadir olan vəkil gərəkdir ki, heç bir şeydən çəkinməyib və qorxmayıb, hər nə ki ürəyində vardır hamısını kəmalicəsarət və cürət ilə ifadə etsin".

Ü.Hacıbəyli vəkili bir millət bahadırına bənzədir və yazırdı ki, vəkil unutmamalıdır ki, o, əhalinin yeganə ümid yeridir. Dördüncüsü, millət vəkili şəxsi mənafeyini unutmalıdır, "Əhalinin mənfəətini hər bir şeydən əziz tutmalıdır ki, onun hüsuluna da canü-dil ilə çalışsın. Dumada xətir gözləmək, təməllüq etmək, böyük-kiçik saymaq kimi adətləri bərtərəf edib, mərd-mərdanə iş görmək lazımdır". Beşincisi, millət vəkili ilə əhali arasında qarşılıqlı hörmət, məhəbbət və anlaşma olmalıdır. Ü.Hacıbəyli seçiləcək vəkillərə vicdanlarının səsinə qulaq asmağı, vəzifələrinin əzəmətini duymağı tövsiyə edir.

Burada Ü.Hacıbəylinin Duma ilə bağlı yazılarının intensivliyinə diqqət çəkmək lazım gəlir. Üzeyir bəy bir qəzetçi və publisist kimi, imperiyada gedən siyasi prosesləri izləyir və ona özünün münasibətini ifadə edirdi. Digər tərəfdən, onun mətbuatda işıq üzü görən yazılarının hər biri Azərbaycan cəmiyyətini maarifləndirmək funksiyasını yerinə yetirirdi. Ü.Hacıbəyli qələminin və qəlbinin bütün gücü ilə çalışırdı ki, böyük bir imperiyanı əhatə edən olduqca mürəkkəb ictimai-siyasi hadisələrin mahiyyətini öz həmvətənlərinə çatdıra və anlada bilsin. O istəyirdi ki, başqa xalqlar kimi, onun həmvətənləri də cəmiyyətin yeniləşməyə olan ehtiyacını anlasın, cəmiyyətin dəyişdirilməsi prosesində yaxından iştirak etsin. Görkəmli ədib publisistik əsərləri ilə, əslində, XX əsrin əvvəllərində gur səsi ilə cəmiyyəti oyanmağa və toparlanmağa çağıran, onu milli istiqlala doğru daşıyan böyük fikir adamlarının cərgəsində idi. Təsadüfi deyil ki, akademik İsa Həbibbəyli Ü.Hacıbəylinin publisistikasının hüdudları, onun bir qələm əhli kimi yaradıcılıq ampluası barədə belə nəticəyə gəlir: "Böyük sənətkarın publisistikası "Molla Nəsrəddin" ədəbi məktəbi ilə maarifçi publisistika arasında olan bənzərsiz mətbu örnəkləridir. Üzeyir bəy Hacıbəylinin publisistikasında mollanəsrəddinçilik üslubu ağırlıq təşkil edir. Bu publisistika mahiyyət etibarilə, əsasən, siyasi publisistika nümunələrindən ibarətdir".

Üzeyir bəy Hacıbəylinin publisistikasında milli-mədəni tərəqqi və ona mane olan məsələlər xüsusi yer tutur. Ədib "İrşad" qəzetinin 14 mart 1906-cı il 67-ci sayında dərc etdirdiyi "Mərəzlərimizdən biri" adlı yazısında cürətsizlik sindromu və onun fəsadlarından danışır. Müəllif dövlətlərin dünya miqyasında mövqeyini cürət məsələsinə bağlayır və onun fikrincə, ingilislərin və amerikalıların "kürreyi-ərzin hər bir nöqtəsində hökm fərma" olmalarının kökündə cürətli olmaları dayanır. Ü.Hacıbəyli dövlətlər kimi, millətlərin də cürətli olmalarının vacibliyindən bəhs edir, cürətsizliyin xalqı mədəniyyətdən uzaqlaşdırdığını vurğulayır. Ü.Hacıbəyli, əslində, burada Şərq-Qərb məsələsini qoyur və Qərbin, o cümlədən amerikalıların tərəqqisində cürətliliyin rolunu nəzərdə tutur. O, milli tərəqqi, milli diriliyi millətin cürətinə bağlı bir məsələ kimi nəzərdən keçirir. Ədib milli cürəti zamanın tələbi olaraq qarşıya qoyur: "Bizim hər birimiz gərək işini tərəqqiyə mindirməyə çalışsın. Ona görə də hər bir təşəbbüs müqabilində özümüzü aciz bilib, cürətsizlik etməməliyik. İnsan ruzigarın önümüzə yumalatdığı çətinliklərlə mübarizədə olmaq üçün yaranıbdır... Acizlik və cürətsizlik göstərməkdənsə, mübarizə edib, ruzigara basılmamaq əfzəldir".

Üzeyir bəy XX əsrin əvvəllərində çar Rusiyasında baş verən ictimai-siyasi hadisələr, genişlənən azadlıq hərəkatı və millətlərin öz müqəddəratını təyin etmək yolunda mübarizəsində mənsub olduğu xalqın ətalət içərisində qalmayıb fəallıq göstərməsinin vacibliyini önə çəkirdi. O bu işdə ziyalıların üzərinə düşən vəzifələrdən bəhs edirdi. "İrşad" qəzetinin 14 fevral 1907-ci il tarixli 25-ci sayında çap etdirdiyi "Halımıza dair" yazısında Rusiyada azadlıq hərəkatı başlayandan bəri bütün millətlərin əsarət zəncirindən azad olmaq üçün güclərini sərf etdiklərini yazır və burada onların "həqiqi mücahidləri"nin, öncül şəxslərinin illərdən bəri apardıqları siyasi maarifləndirmə işlərinin böyük roluna diqqət çəkir və bizim ziyalıların da zamanın tələbindən doğan missiyanı yerinə yetirməli olduqlarını vurğulayırdı.

Ü.Hacıbəyli öz xalqının bütün imperiya boyunca gedən hadisələrin içərisində olmasını, bunun üçün isə milli oyanışa sahiblənməyi, içdən dəyişməyi ən vacib məsələ hesab edirdi: "... indiki zaman o zamandır ki, bizim camaaat ümumrusiya inqilabında iştirak etməyə məcburdur; lakin bu Rusiya inqilabında iştirak edə bilmək üçün öz içimizdə bir xüsusi inqilab törətməyə məcburuq. Çünki əsarəti hürriyyət bilə-bilə, zülməti nuri-maarif bilə-bilə Rusiya hərəkati-azadicuyanəsində iştirak etmək mümkün deyildir". O, bütün imperiyanı başına götürmüş inqilabi hərəkatdan uzaq düşməyin təhlükəsini xatırladır, bunu xalqın olum və ya ölüm məsələsi kimi qoyur: "... bu hərəkatda iştirak etməmək bizdən ötrü böyük bir təhlükəni mocib ola bilər, bizi hər bir cəhətcə aləmi-mədəniyyətdən uzaq salar və bilaxirbilkülliyyə tələf olmağımıza səbəb düşər".

Görkəmli ədib onu düşündürən problemləri daim diqqətdə saxlayır və zaman-zaman mətbuat orqanlarında yenidən həmin məsələ üzərinə qayıdır, özünün təklif və rəylərini verirdi. Bir tənqidçi-realist kimi Üzeyir bəy onu razı salmayan məsələləri bütün incəliklərinə qədər araşdırır, lakin vəzifəsini tənqid etməklə bitmiş hesab etmir, çıxış yolları göstərir, başqa xalqlardan və ölkələrdən örnəklər gətirir. Diqqətçəkən hal odur ki, bu məqamlarda o, mövcud ağrılı ictimai geriliyə görə sadə həmvətənlərini deyil, millətin öndə gedən tanınmışlarını qınayır. Onun "Halımıza dair" yazısının məntiqi davamı kimi "Tərəqqi" qəzetinin 25 mart 1909-cu il tarixli 62-ci sayında "Filankəs" imzası ilə "Ordan-burdan" rubrikasında dərc etdirdiyi "Təəssüflər olsun" məqaləsi bu baxımdan kifayət qədər maraqlıdır.

Ü.Hacıbəyli XX əsrin əvvəllərində bir xalq olaraq irəliyə getməyə mane olan subyektiv səbəbləri göstərir və mövcud durumu bir körpənin halı ilə müqayisə edir: "... biz təzə yerimək istəyən uşağa oxşayırıq ki, bir addım atıb sonra yıxılır; durub bir addım daha atır, amma ayaqları bir-birinə dolaşıb yenə yıxılır, yenə durur, addım atır, bədəni ağırlıq edib yıxılır, durur və i.a." O, uşağın yıxılıb-durması ilə xalqın irəliyə getmək üçün "iki addım dala, beş addım qabağa" addımlaması arasında bir paralellik aparır; uşağın halını onun əzalarının cismani qüvvətsizliyində görür, xalqın halətini isə "bizi qabağa aparan əzaların, yəni iş başında duranlarımızın qüvvətsizliyi" ilə bağlayır. Ü.Hacıbəyli bizim əzalarımızın, yəni iş başında duranlarımızın qüvvətsizliyinin fiziki deyil, məhz mənəvi qüvvətsizlik olduğunu vurğulayır. Bu, ədibi həmişə düşündürən ən ağrılı problemlərdən olmuşdur. Ona görə də belə məqamlarda onun ünvanlı qınağı artıq ittiham halına keçir, xalqın öndəgedənlərini ayılda bilmək üçün qələmin sərt üzünü çevirir: "Səmimiyyət, yəni cani-dildən işə giriməklik yox! Fəaliyyət, yəni oyaq və ciddü-cəhd ilə iş görmək yox, hamısından bədtər mətanəti-qəlb, yəni cürət, ürəklilik yox, həvəs yox, şövq yox, arzu yox..."

Üzeyir bəy başbilənlərin gördüyü işləri yetərsiz və yarımçıq hesab edir və bunun səbəblərini də açıb göstərir. Birinci səbəb budur ki, "bizim əzalarımız öhdələrinə götürdükləri bir işi o qədər aparırlar ki, nə qədər bu iş özbaşına gedə bilər. Amma elə ki, işin qabağına bir balaca əngəl çıxır və burada işi aparmaq üçün əngəli itələmək lazım gəlir, o halda əzalarımızın əl-ayağı boşalıb, işdən əl götürməyi məsləhət bilirlər. İş dəxi "Ördək, balıq və xərçəng"in çəkdikləri araba kimi hamanca yerində qalır...". Ü.Hacıbəyli ikinci səbəbi artıq bir dərd hesab edir və bəzi adamlarımızın dalınca getdikləri işlərin nədən ibarət olduğunu bilmədiklərini, gördüklərindən də bir nəticə hasil olmadığını yazır. Ədib xalqla bağlı işlərdə başbilənlərdən bilik, bacarıq, həvəs və cürət istəyir. Onun fikrincə milli oyanış və tərəqqi zamanın nəbzini tutmağı bacaran, xalqı öz arxasınca aparmağa qadir olan hərtərəfli yetişmiş, qüvvətli və istəkli şəxslərin olmasını tələb edir.

*(Ardı var)*

***Şahbaz MUSAYEV,***
***filologiya elmləri doktoru***




# Azərbaycan Qran-prisinin marşalları

**"Formula-1" Azərbaycan Qran-prisi həyəcanına iki gün qalıb. Sürət həvəskarlarının səbirsizliklə gözlədikləri cari mövsümün 17-ci mərhələsinə də hazırlıq işlərinin ən yüksək səviyyədə görüldüyü diqqət mərkəzindədir.**







## "Formula-1" aləmində könüllüləri "yarış rəsmiləri" də adlandırırlar

Planetin bir nömrəli avtomobil yarışının təşkilində və keçirilməsində bir sıra adamlar xüsusi rol oynayırlar. Onların arasında marşallar (könüllülər) da var. Onları "Formula-1" aləmində "yarış rəsmiləri" də adlandırırlar.

Ümumiyyətlə, dünyada marşallıq sevimli məşğuliyyət kimi qəbul olunur. İnsanlar müxtəlif yarışlarda marşallıq edərək həm maraqlı vaxt keçirir, həm də yarışı yaxından izləmək şansı qazanırlar. Altı il əvvəl Bakı Şəhər Halqası əməliyyat şirkəti tərəfindən təsis edilmiş "Baku Marshals Club" marşallıq fəaliyyətinin bütün istiqamətlərinə dair tədbirlər təşkil edir, müsahibələr və təlimlər keçirir, eyni zamanda beynəlxalq marşal klubları ilə sıx əməkdaşlıq qurur. Marşallar yerinə yetirdikləri vəzifələrə görə aşağıdakı növlərə bölünürlər:

Sektor marşalları trek xəyali olaraq sektorlara bölünür və hər bir sektora nəzarət bir sektor marşalına və onun bir, yaxud iki müavininə tapşırılır. Onlar trek üzrə təyin olunduqları sahədə əsas səlahiyyətli nümayəndə hesab olunur və burada baş verən bütün hadisələrə görə məsuliyyət daşıyırlar.

Trek marşalları halqa boyunca nəzarət postlarında yer alan əsas simalardır. Onların bir çox vəzifələri var. Trek marşalları rəsmilər arasında ən çox məsuliyyət daşıyan şəxslərdir. Onların vəzifələrinə trekə daxil olub onu qalıqlardan təmizləmək, təhlükədə olan avtomobilləri itələmək və qəzadan sonra ərazini təmizləmək daxildir. Bu işi görə bilmək üçün zirəklik, komandada işləmək qabiliyyəti, dözümlülük və təcrübə tələb olunur.

Bayraq marşalları trek boyunca marşal məntəqələrində yarış iştirakçılarını bayraq vasitəsilə məlumatlandıran məsul şəxslərdir. Onların başlıca vəzifələri sürücülərlə bayraqlar vasitəsilə əlaqə qurub pilotları qarşıda olan təhlükə barədə məlumatlandırmaq, qəza anında mövqeyində qalaraq yolda baş vermiş təhlükə barədə xəbərdar etməkdir.

Rəqəmsal bayraq marşalları halqa boyunca müvafiq mövqelərdə yerləşdirilib digər bayraq marşallarının üzərinə düşən işi görürlər. Yeganə fərqləri bayraq əvəzinə displeydən istifadə etmələridir.

Start və finiş marşalları yarışı başlamaq və bitirmək üçün damalı bayraqlardan, elektron vaxt tablolarından və digər vasitələrdən istifadə edirlər. Onlar start və finiş xəttində müxtəlif bayraqları (qara bayraq, mexaniki bayraq və s.) göstərməyə görə cavabdehlik daşıyırlar. Yanğınsöndürmə və xilasetmə marşalları yanğınsöndürmə üzrə geniş təcrübə əldə ediblər. Onlar tədbir zamanı bütün yanğın və xilasetmə işlərinə görə cavabdehlik daşıyırlar.

Tibbi marşalların xidmətinə həkim heyəti (həkimlər, orta təhsilli tibb işçiləri, tibb bacıları və s.), avadanlıq və nəqliyyat vasitələri, trekdə təxirəsalınmaz kömək, yaralıların daşınması, tibbi mərkəz, kommunikasiya sistemi, əvvəldən təyin olunmuş xüsusi xəstəxanalar daxildir.

Texniki təftiş marşalları gündəlik olaraq hər bir avtomobili, o cümlədən qəzaya uğramış avtomobilləri təftiş edərək onların təhlükəsizlik və uyğunluq tələblərinə cavab verdiyini müəyyən edirlər.

Pit və sıra düzülüşü marşalları hər bir tədbirdən əvvəl start düzülüşünü qururlar. Onların vəzifələrindən biri tədbir zamanı pit xəttindəki nəqliyyat vasitələrini və insanları yönləndirməkdir. Bərpa üzrə marşallar sırasına evakuator avtomobillərinin heyəti və onların köməkçiləri daxildir. Onların vəzifəsi tədbir zamanı və tədbirdən sonra sıradan çıxmış və hərəkətsiz qalmış avtomobilləri trekdən uzaqlaşdırmaqdır.

Kommunikasiya üzrə marşallar rabitəçi və ya müşahidəçilər kimi tanınırlar. Onlar hər bir marşal postuna təyin edilir, baş verənləri müşahidə edir, yarışa nəzarət otağına xüsusi audio rabitə kanalları vasitəsilə məlumat ötürürlər.

Hüdudlar üzrə marşallar isə halqa boyu çətin vəziyyətdə qalmış sürücülərə kömək etmək və onları yubanmadan pitlərə aparmaqdır.

Logistika və marşalların təchizatı könüllülərinin vəzifəsi digər marşalları tədbirdən əvvəl və tədbir zamanı yemək, su, avadanlıq, dəftərxana ləvazimatı, radio qurğuları və geyimlə təmin etməkdir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Sağlam qidalanma sağlam gələcəyimizdir

**Sağlam qidalanma hər bir insanın həyat keyfiyyətini, sağlamlığını və uzunömürlülüyünü müəyyən edən əsas amillərdən biridir. İnsanın necə yaşaması, hansı xəstəliklərlə qarşılaşması, hətta psixoloji vəziyyəti belə onun gündəlik qida seçimlərindən asılıdır.**



Hər bir ailənin süfrəsində qoyulan yeməklər təkcə bu gün üçün doyumluluq yaratmır, eyni zamanda sabahın sağlamlığını, ömrün uzunluğunu və həyat keyfiyyətini müəyyən edir. Ona görə də ailə daxilində sağlam qidalanma mədəniyyətinin formalaşdırılması həm valideynlərin, həm də uşaqların həyatında əvəzolunmaz rol oynayır. Xüsusilə də ailədə formalaşan qidalanma vərdişləri uşaqların gələcək sağlamlığına birbaşa təsir edir.

Ailədə sağlam qidalanma vərdişlərinin formalaşması sadəcə təamların növü ilə məhdudlaşmır. Bu, eyni zamanda uşaqlara nümunə göstərmək, onlarda qidalanma haqqında düzgün təsəvvür yaratmaqdır. Uşaq evdə valideyninin əlində daim qazlı içki görürsə, məktəbdə də həmin içkini almağa meyilli olacaq. Əgər ailədə şirniyyatlar gündəlik həyatın bir parçasına çevrilibsə, uşaq da onları zəruri qida hesab edəcək. Əksinə, evdə daha çox meyvə, tərəvəz, ev şəraitində hazırlanmış yeməklər və sağlam qəlyanaltılar süfrəyə qoyularsa, uşaq bunları normal qəbul edir və təbii ki, həmin vərdişlər onun şüuraltına köçür.

Məktəb mövsümündə uşaqların sağlam qidalanmasına xüsusi diqqət yetirmək lazımdır. Çünki onlar məktəbə getdikdə artıq valideyn nəzarətindən bir qədər kənarda qalır. Bufetdə cəlbedici görünən paketlənmiş qidalar, rəngli içkilər, şokolad və fast-food tipli məhsullar uşaqların seçiminə asanlıqla təsir edir. Bu qidalar qısa müddətli enerji versə də, uzun müddət istifadə edildikdə həm sağlamlığa zərər vurur, həm də öyrənmə qabiliyyətini zəiflədir. Belə halların qarşısını almaq üçün valideynlər uşaqları üçün evdə sağlam, həm doyumlu, həm də dadlı qəlyanaltılar hazırlamalıdırlar.

Əslində, uşaqlar üçün hazırlanan sağlam qəlyanaltılar o qədər də mürəkkəb deyil. Məsələn, tam taxıllı çörəkdən hazırlanmış sendviçlər, içərisinə toyuq filesi, kahı, pomidor və pendir qoymaqla həm ləzzətli, həm də faydalı olur. Yulaf, bal və qoz-fındıqdan hazırlanan ev batonları şokolad və paketlənmiş peçenyelərə sağlam alternativdir. Meyvələri dilimləyib xüsusi qabda uşaqlara vermək, evdə hazırlanmış qatığın içinə meyvə parçaları qatmaq həm onların marağını artırır, həm də sağlamlıq baxımından xeyirlidir. Quru meyvələr - əncir, xurma, üzüm - həm enerjili, həm də təbii şirni alternatividir. Belə qidalar uşaqlara məktəbdə dərslərə diqqət toplamaq, gün ərzində yorulmadan fəaliyyət göstərmək üçün güc verir.

Sağlam qidalanmanın vacibliyini elmi əsaslarla da izah etmək mümkündür. Orqanizm hər gün müxtəlif qida maddələrinə ehtiyac duyur. Mütəxəssislər bildirirlər ki, zülal əzələlərin, toxumaların qurulması və bərpası üçün əsas rol oynayır. Karbohidrat bədənin əsas enerji mənbəyidir, amma burada seçim vacibdir - sadə şəkərlərlə dolu qidalar deyil, tərəvəzlər və meyvələr daha faydalıdır. Yağlar isə yanlış düşünülən kimi tamamilə uzaq durulmalı maddələr deyil, əksinə, sağlam yağlara orqanizmin ehtiyacı var. Zeytun yağı, avokado, balıq yağı həm ürək-damar sağlamlığına, həm də beyin fəaliyyətinə faydalıdır. Vitamin və minerallar isə immun sistemindən tutmuş sümük quruluşuna qədər hər bir prosesdə iştirak edir.

Əgər insan balanssız qidalanırsa, nəticələri dərhal özünü göstərir. Yorğunluq, tez-tez xəstələnmə, diqqət dağınıqlığı, dərinin solğunlaşması, saç tökülməsi - bunlar hamısı orqanizmin siqnallarıdır. Uşaqlarda isə bu, daha ciddi fəsadlara gətirib çıxara bilər: boy və çəki inkişafının geridə qalması, öyrənmə qabiliyyətinin zəifləməsi, psixoloji gərginlik, hətta gələcəkdə xroniki xəstəliklər. Ona görə də sağlam qidalanma sadəcə böyüklər üçün deyil, uşaqlar üçün də həyati əhəmiyyət daşıyır.



Sağlam qidalanmanın digər bir mühüm tərəfi qida məhsullarının düzgün saxlanılmasıdır. Ən faydalı ərzaq belə düzgün saxlanmadıqda təhlükəli ola bilər. Məsələn, çiy ət məhsulları ilə bişmiş qidaların eyni yerdə saxlanılması mikrobların yayılmasına səbəb olur. Süd məhsulları soyuducuda saxlanmalı, çörək quru və sərin şəraitdə tutulmalıdır. Meyvə və tərəvəzlər təmiz su ilə yuyulmalı, bəzən sirkəli və ya duzlu suda gözlədilməlidir ki, üzərindəki zərərli maddələr azalsın. Bu qaydalar sadə görünsə də, onların tətbiqi ailənin sağlamlığını qoruyan ən mühüm vasitələrdən biridir.

Uşaqlara sağlam qidalanmanı öyrətməyin ən gözəl yollarından biri onları mətbəx prosesinə cəlb etməkdir. Əgər uşaq valideynlə birlikdə salat doğrayırsa, yoqurt hazırlayırsa və ya sendviç düzəldirsə, onun yeməyə marağı artır. Bu, həm də uşaqda məsuliyyət hissini gücləndirir. Onlar yeməyi sadəcə hazır məhsul kimi deyil, zəhmətin nəticəsi kimi görürlər və daha çox dəyər verirlər. Bu vərdişlər ömür boyu davam edir və gələcəkdə uşaqlar öz ailələrində də sağlam qidalanmaya üstünlük verirlər.

Ümumiyyətlə, sağlam qidalanma sadəcə yeməklərlə kifayətlənmək deyil. Bu, həm də həyat tərzidir. Ailədə yeməklər vaxtında yeyilməli, süfrəyə oturmaq bir mədəniyyət halına gətirilməlidir. Sürətli, ayaqüstü yeməklər uşaqların vərdişlərini mənfi istiqamətə yönəldir. Əgər ailədə birlikdə nahar və şam süfrəsi qurulursa, uşaqlar üçün bu, yalnız yemək deyil, həm də ünsiyyət, birgə vaxt keçirmə və ailə dəyərlərinin paylaşılması olur.

Valideynlər unutmamalıdırlar ki, bu gün verilən qida sabah uşaqların sağlamlığıdır. Uşaq sağlam qidalanma ilə böyüyərsə, gələcəkdə həm güclü bədənə, həm də sağlam düşüncəyə sahib olacaq. Sağlam qidalanma uşağın dərslərdə uğurlu olması, idmanda aktiv iştirakı, hətta psixoloji tarazlığı üçün də vacibdir. Ailənin hər bir üzvü bu prinsiplərə əməl etdikdə uşaqlar da sağlamlığı həyat tərzi kimi qəbul edir.

Sağlam qidalanma ailə üçün bir sərmayədir. Bu sərmayə bahalı dərmanlardan daha faydalı, xəstəliklərdən qorunmaq üçün ən güclü vasitədir. Ən əsası isə gələcək nəsillərin sağlam, güclü və xoşbəxt böyüməsinə zəmanət verir.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Fransanın kredit reytinqi tarixi minimuma endirilib

## Əsas səbəblər siyasi böhran və artan dövlət borcudur



Beynəlxalq Fitch Ratings agentliyi Fransanın kredit reytinqini "AA-"dan "A+" səviyyəsinə endirib. Bu, ölkədəki siyasi qeyri-sabitlik və artan dövlət borcları fonunda edilib.

Fransa son vaxtlar daha çox siyasi və iqtisadi qeyri-müəyyənlik içərisindədir. Fransua Bayru hökuməti sentyabrın 8-də parlamentdə keçirilən səsvermədən sonra istefa verib və bu da son iki ildə dördüncü hal idi. Sentyabrın 10-da isə bütün ölkəni bürüyən kütləvi etirazlar zamanı nümayişçilər hökuməti və siyasətçiləri Fransa daxilindəki reallıqlardan uzaq olmaqda və sadə insanların problemlərinə məhəl qoymamaqda ittiham ediblər.

Bütün bunların fonunda, yeni baş nazir Sebastyen Lekornunun inauqurasiyasından cəmi bir neçə gün sonra "Fitch Ratings" agentliyi Fransanın uzunmüddətli kredit reytinqini "A+" səviyyəsinə endirib. Bu, ölkə tarixində ən pis göstəricidir.

Agentlik qərarının bir neçə səbəbini qeyd edib. Onlardan biri ölkənin dövlət borcunun davamlı artımı ilə bağlıdır. 2024-cü ildə borc 3,3 trilyon avro (ÜDM-in təxminən 113,2 faizi), 2025-ci ildə isə artıq 3,4 trilyon avro təşkil edib.

"Fitch Ratings"in proqnozuna görə, 2027-ci ildə dövlət borcu ÜDM-in 121 faizinə qədər artacaq. Bu kontekstdə Fransada siyasi təlatümlər, xüsusən də tez-tez hökumət dəyişikliyi qeyd olunur.

"Bu qeyri-sabitlik siyasi sistemin əhəmiyyətli fiskal konsolidasiyanı təmin etmək qabiliyyətini zəiflədir", - agentliyin bəyanatında bildirilir.

Agentlik həmçinin Fransanın büdcə kəsirinin əvvəlki hökumətin istədiyi kimi 2029-cu ilə qədər ÜDM-in 3 faizinə qədər azalacağına şübhə edir. Keçən il bu, 5,8 faiz təşkil edib ki, bu da 2024-cü il üçün Aİ-də müəyyən edilmiş icazə verilən limitdən (3 faiz), demək olar ki, iki dəfə çoxdur. Dövlət borcuna gəlincə, bu rəqəm Maastrixt müqaviləsinə uyğun olaraq 60 faizdən çox olmamalıdır.

Bütün bunlar, politoloqların fikrincə, Fransanı beynəlxalq investorlar üçün daha az etibarlı edir.

Həmçinin qeyd olunur ki, Fransa üçün kreditlər bahalaşacaq və faiz dərəcəsinin artması ilə sosial xərclərin azaldılmasına ehtiyac yaranacaq. Bu, həm fransızların, həm də miqrantların yeni etirazlarına səbəb olacaq və Fransada onsuz da kifayət qədər olan kriminogen vəziyyəti daha da gərginləşdirə bilər.

Fransadakı siyasi və iqtisadi sarsıntılar fonunda nəinki Makronun istefası ilə bağlı çağırışlar getdikcə daha çox eşidilir, həm də yeni baş nazir Sebastyen Lekornu artıq etimadsızlıq səsverməsi ilə hədələnir. Bu kontekstdə qanuni yolla prezidentin impiçmentinə nail olmaq çətin, demək olar ki, qeyri-mümkün olacaq. Bunu həyata keçirmək üçün genişmiqyaslı sosial böhran lazımdır. Ekspertlər hesab edirlər ki, Makron özü isə istefa verməyəcək.

Ancaq parlamentin iflic olması variantı mümkündür. "İzvestiya"nın əməkdaşı siyasətşünas Andrey Kudryavtsev hesab edir ki, bunun üçün hökumətin etimadsızlıq səsverməsi yolu ilə istefaları silsiləsi davam etməlidir. Bundan əlavə, solçu qüvvələrin alyansı "Yenilməyən Fransa" alyansı və ifrat sağçı "Milli İttifaq" əvvəlki hallarda olduğu kimi, birləşmiş şəkildə hərəkət etməlidir.

Politoloq İlona Mizovanın fikrincə, kredit reytinqinin aşağı salınması reputasiyaya zərbədir və əlavə təzyiq faktorudur: "Bu, Makronun iqtisadi siyasətinin effektivliyini şübhə altına alır və müxalifətin tənqidlərini artırır. Siyasi fəsadlar ciddi ola bilər - ictimai narazılıq fonunda büdcə xərclərinin azaldılması zərurəti etirazların daha da genişlənməsi riskini artıracaq. Bu, makroiqtisadi kursun legitimliyinə siyasi zərbədir və prezidentin özünə inamı sarsıdır".

Baş verənlər Fransanın qitədə siyasi liderlik ambisiyalarını zəiflədir, maliyyə problemləri ümumavropa büdcə qaydaları ilə bağlı danışıqlarda Parisin nüfuzunu sarsıdır.

# Donald Tramp "The New York Times"a qarşı 15 milyard dollarlıq məhkəmə iddiasını açıqlayıb

ABŞ Prezidenti Donald Tramp "The New York Times" qəzetini böhtan və təhqirə görə məhkəməyə 15 milyard dollarlıq iddia vermək qərarına gəldiyini açıqlayıb.



"Bu gün mən "The New York Times"a qarşı böhtan və təhqirlə bağlı 15 milyard dollarlıq məhkəmə iddiası verməkdən böyük şərəf duyuram", - deyə Donald Tramp Truth Social sosial şəbəkəsində yazıb.

Tramp bu qəzeti "ölkəmizin tarixində ən pis və tənəzzülə uğramış qəzetlərdən biri" hesab edir.

Prezidentin dediyinə görə, nəşr "sevimli prezidentiniz (mən!), mənim ailəm, biznesim, "Amerikanı yenidən möhtəşəm edin" hərəkatı və bütövlükdə ölkəmiz haqqında onilliklər boyu yalan danışır".

Ağ Evin rəhbəri hesab edir ki, "The New York Times" "radikal sol Demokrat Partiyasının ruporudur".

İddiaya Florida ştatında baxılacaq.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**539-49-20**


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Tibb Universitetinin I Mamalıq və Ginekologiya kafedrasının kollektivi kafedranın dosenti Fəridə Abbasovaya anası

**SOLMAZ HƏSƏN QIZI SƏLİMXANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4147**
**Sifariş 1891**

**Qiyməti 60 qəpik**